Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 192 (7046) CÜMƏ, 4 sentyabr 2015-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

# Prezident İlham Əliyev Bakının Səbail rayonundakı 189-190 nömrəli orta məktəbdə yaradılan şəraitlə tanış olub





Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Səbail rayonundakı 189-190 nömrəli orta məktəbdə həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlət başçısına məlumat verdi.

Bildirildi ki, 190 nömrəli orta məktəb 1946-cı ildə fəaliyyətə başlayıb. Məktəb üçün bina 1957-ci ildə inşa olunub. O vaxta qədər isə təhsil ocağı Bülbül adına Musiqi Məktəbinin binasında fəaliyyət göstərib. Artıq iki ildir ki, bu təhsil ocağı 189 nömrəli məktəblə birləşib.

Qeyd olundu ki, 189 nömrəli məktəbin binası isə 1934-cü ildə inşa edilib. Bina 1941-1945-ci illərdə 15/46 nömrəli təxliyyə hospitalı kimi fəaliyyət göstərib. Məktəbin binasında yenidənqurma işlərinə bu ilin aprelində başlanılıb və yüksək səviyyədə həyata keçirilib.

Məktəbin foyesində ulu öndər Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi qayğını və Prezident İlham Əliyevin paytaxtın Səbail rayonundakı məktəblərin müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində gördüyü işləri əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Burada, həmçinin Heydər Əliyev Muzeyi də fəaliyyət göstərəcək.

Dövlət başçısı 189-190 nömrəli orta məktəbdə əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə yaxından tanış oldu.



Beş mərtəbədən ibarət məktəbdə 42 sinif otağı var. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilən xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına əsasən, bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxtda və ətraf qəsəbələrdə, eləcə də respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur və lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir, yeni yaşıllıq zolaqları salınır.

Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülür. 189-190 nömrəli orta məktəbdə də bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib. Şagirdlərin nəzəri bilikləri laboratoriyalarda tətbiq etmələri üçün də zəruri avadanlıq quraşdırılıb.

Təhsil ocağının idman zalı da müasirliyi ilə diqqəti cəlb edir. Məktəbin istilik və işıqlandırma sistemləri də müasir tələblər səviyyəsində yenidən qurulub.

Bildirildi ki, orta məktəbdə 1500 şagird təhsil alır.

Prezident İlham Əliyev məktəbin sinif otaqlarını gəzdi, yaradılan şəraitlə tanış oldu.

**AZƏRTAC**

# Paytaxtın Yasamal rayonundakı Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Liseyin binası əsaslı surətdə yenidən qurulub

## *Prezident İlham Əliyev görülən işlərlə tanış olub*

Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Yasamal rayonundakı Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Liseyin binasında təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Dövlət başçısına məlumat verildi ki, istedadlı uşaqların seçilməsi üçün keçmiş Sovet İttifaqında SSRİ Maarif Nazirliyinin qərarı ilə Azərbaycanda internat məktəbləri təşkil edilib. Onların yaradılmasında respublikamızın ayrı-ayrı rayonlarından istedadlı uşaqları müsabiqə yolu ilə qəbul etmək, dövlət hesabına yataqxana və yeməkxana ilə təmin etmək, əsas fənlərdən dərinləşdirilmiş proqramla dərslər keçmək başlıca məqsəd kimi qarşıya qoyulub.

Bildirildi ki, bu məktəb üçün 1963-cü ildə bina inşa olunub. 1964-cü ildə 1 nömrəli internat məktəbinin bazasında 1 nömrəli fizika-riyaziyyat və kimya-biologiya təmayüllü internat məktəbi yaradılıb. 1969-cu ildə kimya-biologiya bu bazadan ayrılıb. Bu bazada isə 1 nömrəli fizika-riyaziyyat təmayüllü internat məktəbi fəaliyyətini davam etdirib. 1991-ci ildə Nazirlər Kabinetinin qərarı ilə məktəbin adı dəyişdirilib, Respublika Fizika-Riyaziyyat və İnformatika Təmayüllü lisey adlandırılıb. Hazırda lisey bu adla fəaliyyət göstərir.





Diqqətə çatdırıldı ki, təhsil ocağının binasında təmir və yenidənqurma işlərinə bu ilin mayında başlanılıb. Liseyin əsas binasında, yataqxana və yeməkxanasında yüksək standartlar tətbiq olunub. Bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən biridir. Bu siyasətin nəticəsi olaraq son illərdə müasir məktəb binaları tikilir, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunur. Bu proses təkcə paytaxtla məhdudlaşmayıb, bölgələri də əhatə edib. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verib.

Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlığı ilə diqqət çəkən bu təhsil ocaqlarından biri də Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Liseydir. Hazırda Liseydə respublikanın bütün bölgələrindən 600 şagird təhsil alır. Onlardan 300 nəfəri dövlət hesabına yataqxanada qalır. Təhsil ocağına qəbul 7-ci, 8-ci və 9-cu siniflərdən aparılır. Bu təhsil ocağı fəaliyyət göstərdiyi müddətdə uğurlu nəticələr əldə edib. Təhsil ocağının məzunları arasında 300-dən çox elmlər namizədi, 30-a yaxın elmlər doktoru var.

Prezident İlham Əliyev liseydə ayrı-ayrı sinif otaqlarını gəzdi, burada yaradılan şəraitlə yaxından tanış oldu. Yeni dərs ili ərəfəsində liseyin bütün sinif otaqları, fənn kabinetləri əsaslı şəkildə təmir edilib, lazımi avadanlıq və ləvazimatla təchiz olunub. Burada ən müasir havalandırma və işıqlandırma sistemləri quraşdırılıb. Təhsil ocağının həyətində də abadlıq və quruculuq işləri görülüb.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Malayziyanın “Petronas” şirkətinin rəhbərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də “Petronas” şirkətinin prezidenti və şirkətlər qrupunun rəhbəri Datuk Van Zulkifli Van Ariffinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

“Petronas” şirkətinin ölkəmizin enerji sektorunda iştirakından məmnunluğunu bildirən dövlət başçısı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə “Petronas” şirkəti arasında sıx əməkdaşlığın Azərbaycan-Malayziya ikitərəfli əlaqələrinin gücləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu dedi. Hazırda ölkələrimiz arasında ikitərəfli münasibətlərin fəal mərhələdə olduğunu vurğulayan Prezident İlham Əliyev əlaqələrimizin müxtəlif sahələrində, xüsusilə neft və qaz sektorunda əməkdaşlıq üçün böyük potensialın və yaxşı perspektivli təşəbbüslərin mövcud olduğunu diqqətə çatdırdı. “Petronas” şirkətinin Xəzər dənizinin Azərbaycan sektorundakı fəaliyyətinə toxunan dövlət başçısı əməkdaşlığımızın yeni formatının müəyyən edilməsi ilə bağlı aparılan müzakirələrin önəmini qeyd edərək bu müzakirələrin yeni imkanlar açacağını dedi və bunun üçün səyləri artırmağın zəruriliyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə “Petronas” şirkətinin birgə fəaliyyətinin biznes sahəsində əməkdaşlıq üçün daha yaxşı imkanlar açacağını vurğuladı. Azərbaycan ilə Malayziya arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu deyən dövlət başçısı bu münasibətlərin Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə “Petronas” şirkəti arasında əməkdaşlığın inkişafında da əhəmiyyətli rol oynadığını bildirdi. Dövlət başçısı ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı müəyyənləşdirilmiş məqsədlərə nail olmaq üçün fəal əməkdaşlığın zəruri olduğunu qeyd etdi.

Rəhbərlik etdiyi şirkətin Azərbaycan ilə bundan sonra da əməkdaşlığa sadiq olduğunu bildirən Datuk Van Zulkifli Van Ariffin ölkəmizdəki investisiya mühitinin çox yaxşı olmasından məmnunluğunu ifadə etdi. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə əməkdaşlığın bütün sahələrdə “Petronas” şirkəti üçün böyük önəm daşıdığını vurğulayan qonaq “Petronas” şirkətinin ölkəmizdə fəaliyyətini daha da genişləndirmək niyyətində olduğunu bildirdi. “Şahdəniz” yatağının işlənməsində əməkdaşlığa toxunan Datuk Van Zulkifli Van Ariffin “Petronas” şirkətinin bu layihənin həyata keçirilməsi işində bundan sonra da fəal iştirak edəcəyini dedi.

***AZƏRTAC***

# Azərbaycan Dövlət Neft Akademiyasının adının dəyişdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Dövlət Neft Akademiyası Azərbaycan Dövlət Neft və Sənaye Universiteti adlandırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2015-ci il*

# M.B.Babanlının Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mustafa Baba oğlu Babanlı Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2015-ci il*

# Milli Məclisin Sədri Parlament sədrlərinin Ümumdünya Konfransında çıxış edib









BMT-nin mənzil qərargahında Parlament sədrlərinin 4-cü Ümumdünya Konfransı öz işini davam etdirib. Konfransda Azərbaycanı Milli Məclisin Sədri Oqtay Əsədov başda olmaqla hazırda Nyu Yorkda işgüzar səfərdə olan nümayəndə heyəti təmsil edir.

Oqtay Əsədov konfransda çıxış edib. O, ölkəmizin dövlət müstəqilliyi bərpa ediləndən keçən dövr ərzində Azərbaycanda qazanılmış uğurlar və demokratik inkişaf prinsipləri barədə söhbət açıb. O. Əsədov konfransın təşkilatçılarının bu təşəbbüsünü yüksək qiymətləndirərək vurğulayıb ki, belə tədbirlər bütün dünyada sülhün və davamlı inkişafın təmin edilməsi işində parlamentlərin əməkdaşlığı üçün şərait yaradır. Milli Məclisin spikeri qeyd edib ki, 4-cü Ümumdünya konfransının bəyannamə layihəsində parlamentlərarası əməkdaşlığın problemləri və vəzifələri, o cümlədən müharibələrin və münaqişələrin qarşısının alınmasına yönəlmiş səylər, terrorizmə, mütəşəkkil cinayətkarlığa, insan alverinə, narkotik maddələr alverinə qarşı mübarizə, habelə gender bərabərliyinin yaxşılaşdırılması və yoxsulluğun aradan qaldırılması məsələləri göstərilir. Bununla bərabər, O.Əsədov təəssüflə qeyd edib ki, təcavüzkar etnik separatizm problemi bəyannaməyə daxil edilməyib. O, sözünə davam edərək deyib ki, təcavüzkar etnik separatizm təkcə ayrı-ayrı regionlar üçün deyil, bütün planetdə sülhün və təhlükəsizliyin təmin edilməsi üçün təhdid mənbəyidir.

Milli Məclisin spikeri deyib ki, Ermənistan ilə Azərbaycan arasında silahlı münaqişə nəticəsində Azərbaycan təcavüzkar separatizmin qurbanı olub. 20 ildən çoxdur ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayır. Azərbaycana qarşı hərbi təcavüzün gedişində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ regionunda aparılmış etnik təmizləmə nəticəsində minlərlə dinc sakin həlak olub. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə dünya birliyi adından Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığını təsdiq edən, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edib. O.Əsədov dünya birliyinə müraciətlə təcavüzkarlar tərəfindən beynəlxalq hüququn pozulması faktlarının pislənməsində həmrəy olmağa və bu istiqamətdə qəti addımlar atmağa çağırıb.

O.Əsədov çıxışının sonunda bəyannamədə göstərilən məsələlərin həll edilməsi üçün Azərbaycan parlamentinin digər ölkələrin parlamentləri ilə əməkdaşlığı möhkəmlətməyə hazır olduğunu bildirib.

Azərbaycan nümayəndə heyətinin işgüzar səfər çərçivəsində sentyabrın 2-də Avropa Şurası Parlament Assambleyasının (AŞ PA), İranın və Albaniyanın nümayəndə heyətləri ilə də görüşüb. AŞ PA-nın sədri Ann Brasser ilə görüşdə Azərbaycanla AŞ PA arasında əlaqələri inkişaf etdirmək yolları, habelə 2015-ci il noyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkilərində AŞ PA-nın müşahidə missiyası ilə əlaqədar məsələlər müzakirə edilib.

İran Məclisinin Sədri Əli Laricani ilə Oqtay Əsədovun görüşündə regional iqtisadi inkişaf və Azərbaycanla İran arasında münasibətlər barədə fikir mübadiləsi aparılıb. İki ölkənin qanunverici orqanlarının sədrləri, o cümlədən, Azərbaycanın regionda və onun hüdudlarından kənarda energetika sektorunda və nəqliyyat infrastrukturu yaradılmasında qazanılmış nailiyyətləri müzakirə ediblər.

Albaniya parlamentinin vitse-spikeri Valentina Leskay ilə görüşdə ikitərəfli iqtisadi əməkdaşlıq məsələləri müzakirə edilib, vurğulanıb ki, Albaniyanın da ərazisindən keçən Transadriatik Qaz Kəmərinin tikintisi yeni iş yerləri açılmasına və Albaniya iqtisadiyyatının inkişafına şərait yaradır. Xanım Leskay Azərbaycanın Albaniya iqtisadiyyatına verdiyi töhfəni yüksək qiymətləndirib. O, Azərbaycanın uğurlarından söhbət açaraq qeyd edib ki, Albaniya Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda, o cümlədən iqtisadiyyat sahəsində həyata keçirilən müsbət dəyişiklikləri alqışlayır. Vitse-spiker deyib ki, Albaniya bu təcrübəni öyrənmək və öz ölkəsinin iqtisadiyyat sektorunda tətbiq etmək niyyətindədir.

Parlament sədrlərinin Parlamentlərarası İttifaq tərəfindən təşkil edilən növbəti Ümumdünya Konfransı 2020-ci ildə keçiriləcək.

***Yusif BABANLI,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Nyu York*

# Bakı artıq İCAPP-ın tədbirlərinin keçirildiyi mərkəzə çevrilib

*Bu fikir Nazirlər Kabinetində keçirilən görüşdə səslənib*



Sentyabrın 3-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini-icra katibi Əli Əhmədov Bakıda keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) Qadınlar Qolunun 3-cü iclasının iştirakçıları ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Qadınlar Qolunun 3-cü iclasının önəmindən danışan Əli Əhmədov tədbirdə bir sıra əhəmiyyətli məsələlərin müzakirə edildiyini vurğulayıb. Baş nazirin müavini əminliklə qeyd edib ki, iclasda qəbul edilən qərarlar üzv ölkələrin hər birində öz müsbət təsirini göstərəcək. İclasın nəticələri gələcək fəaliyyəti üçün əsas olacaq.

Qadın problemlərinin hər zaman dünyada diqqət mərkəzində olduğunu vurğulayan Baş nazirin müavini Əli Əhmədov deyib ki, Asiya qitəsi, Şərq ölkələri bu məsələyə xüsusi həssaslıqla yanaşırlar. YAP sədrinin müavini-icra katibi İCAPP-ın bu məsələyə bu cür diqqət göstərməsinin də sevindirici hal olduğunu qeyd edib.

Müsəlman Şərqində ilk dəfə Azərbaycanda qadınlara seçki hüququnun verildiyini bildirən Əli Əhmədov vurğulayıb ki, ona görə də İCAPP-ın bu həssas mövzuda tədbirinin Bakıda keçirilməsi heç də təsadüfi deyildir. Baş nazirin müavini ölkəmizdə qadın problemlərinin həlli istiqamətində görülən işlər barədə də qonaqlara məlumat verib.

“Bakı artıq İCAPP-ın tədbirlərinin keçirildiyi mərkəzə çevrilib”,- deyən İCAPP daimi komitəsinin həmsədri və qurumun baş katibi Çunq Eui-yonq təşkilata verdiyi dəstəyə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib.

Bakı iclasının bir çox önəmli məsələlərin müzakirəsi üçün əlverişli imkan yaratdığını söyləyən baş katib İCAPP-ın Qadınlar Qolunun fəaliyyəti barədə ətraflı məlumat verib.

Türkiyənin Ədalət və İnkişaf Partiyası Qadın Qolunun sədr müavini Məryəm Göka, Nepal parlamentinin üzvü Sucata Koirala və başqaları ölkəmizdə gedən inkişaf prosesinin şahidi olduqlarını, bunun onlarda xoş təəssürat yaratdığını, paytaxt Bakının möhtəşəmliyinə heyran qaldıqlarını vurğulayıblar.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində təqdimat mərasimi keçirilib



Sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Şöhrət” və üçüncü dərəcəli “Vətənə xidmətə görə” ordenlərinin, “Tərəqqi”, “Vətən uğrunda”, “Hərbi xidmətlərə görə”, “İgidliyə görə” və “Dövlət qulluğunda fərqlənməyə görə” medallarının, eləcə də Azərbaycan Respublikasının fəxri adlarının təqdimat mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək deyib: Bu gün 38 nəfərə Azərbaycan Respublikasının orden, medal və fəxri adları təqdim olunur. Təqdimat mərasimi əlamətdar tarixdə - sentyabrın 3-də keçirilir. 1991-ci il sentyabrın 3-də ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir.

Ali Məclisin Sədri təltif olunanları ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsinin ildönümü və dövlətimizin ali mükafatlarına layiq görülmələri münasibətilə təbrik edərək deyib: 3 sentyabr Azərbaycan tarixində əlamətdar gündür. 1991-ci il sentyabrın 3-də ulu öndərimizin siyasi hakimiyyətə qayıdışı Azərbaycanın siyasi həyatında əlamətdar hadisə oldu. Həmin dövrdə ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi təkcə Naxçıvanın deyil, ümumilikdə Azərbaycanın taleyüklü məsələləri ilə bağlı Ali Məclisin sessiyalarında müzakirələr aparmış, mühüm qərarlar qəbul etmiş, ölkədə həyata keçirilən yanlış siyasətə qarşı etirazını bildirmişdir. Əgər 1991-ci il sentyabrın 3-də ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsəydi, bu gün müstəqil Azərbaycan da olmayacaqdı. Bu tarix Azərbaycana dövlətçilik, inkişaf, birlik, sabitlik və əmin-amanlıq gətirdi.

Ali Məclisin Sədri deyib: “Ölkəmizdə ulu öndərin müəyyənləşdirdiyi yolun inkişaf etdirilməsində yaxından iştirak edən, sədaqət göstərən insanların əməyi layiqincə qiymətləndirilir. Bu gün orden, medal və fəxri adlarla təltif olunanlar da ölkəmizin inkişafında fəaliyyətləri ilə fərqlənən şəxslərdir”.

Ali Məclisin Sədri təltif olunanların bundan sonra da ölkəmizin inkişafına və dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə töhfə verəcəklərinə əminliyini bildirib, orden və medalların, Azərbaycan Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim edib.

Təltif olunanlardan Güllər Məmmədova, Əsgər Əsgərov, Ərəstun Sadiqov, Hafizə Rzayeva, Namiq Əhmədov, Fəxrəddin İbrahimov, Səfər Quliyev, Bəxtiyar Mahmudov, Etibar Musayev, Cavid Səfərov, Musa Abdullayev, Elşad Həsənov, Asəf Quliyev, Fərrux Bayramov və Lalə Həsənova minnətdarlıq edərək deyiblər ki, əlamətdar tarixi gündə dövlət mükafatlarına layiq görülmək böyük etimad olmaqla yanaşı, həm də ikiqat şərəfdir. Bu gün Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası inkişaf edir, tərəqqiyə qovuşur. Bütün bunların təməlində isə ulu öndər Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi dayanır. Muxtar respublikada geniş quruculuq işləri aparılır, bütün yaşayış məntəqələri müasirləşdirilir, insanlar rahat yaşayırlar. Bu inkişaf hər bir sakini doğma torpağa daha sıx tellərlə bağlayır. Müxtəlif sahələrdə çalışan insanlar muxtar respublikanın bugünkü inkişafında pay sahibi olmaqdan qürur duyurlar.

Təltif olunanlar bundan sonra da ümummilli liderin siyasi xəttinə sadiq qalacaqlarını və onlara göstərilən etimadı doğruldacaqlarını bildiriblər.

# *“Cosmopolitan”:* “Mehriban Əliyeva, Mişel Obama və bütün dünyanın digər ən parlaq birinci xanımları”


COSMOPOLITAN МОДА ОТНОШЕНИЯ КРАСОТА ЗДОРОВЬЕ ЗВЕЗДЫ

Мехрибан Алиева

*Жена президента Азербайджана Ильхама Алиева*

Getti Images

Умница и красавица Мехрибан — внучка писателя Мира Джалала Пашаева и дочь ректора Национальной академии авиации Арифа Пашаева — представительница одной из самых влиятельных фамилий Азербайджана. Свой род Мехрибан продолжила достойно: с красным дипломом окончила Медицинский университет имени Сеченова, став женой будущего президента еще во время учебы (у пары родилось трое детей). Мехрибан работала по профессии в Московском научно-исследовательском институте глазных болезней, а после стала заниматься благотворительностью. Сейчас первая леди Азербайджана — посол доброй воли ООН и ЮНЕСКО. И конечно, самая стильная леди страны.


COSMOPOLITAN МОДА ОТНОШЕНИЯ КРАСОТА ЗДОРОВЬЕ ЗВЕЗДЫ

ПОДПИШИСЬ ЗАГАР ЛЕТНИЙ ОТПУСК ИДЕАЛЬНОЕ ТЕЛО ОСТРОВА

ЗВЕЗДЫ / КРУПНЫМ ПЛАНОМ

Мехрибан Алиева, Мишель Обама и другие самые яркие первые леди со всего мира

Fotodom / Rex Fe

Они не певицы и не актрисы, но и у этих дам есть свои поклонники. Женщины копируют их стиль, а мужчины были бы не против занять место их супругов. Еще бы! Наши героини — это самые яркие и стильные первые леди по всей планете.

“Ağıllı və gözəl Mehriban - yazıçı Mircəlal Paşayevin nəvəsi və Milli Aviasiya Akademiyasının rektoru Arif Paşayevin qızı Azərbaycanda ən nüfuzlu soyadlardan birinin nümayəndəsidir. Mehriban öz nəslinin şöhrətini ləyaqətlə davam etdirib: Seçenov adına Moskva Tibb Universitetini fərqlənmə diplomu ilə bitirib, hələ tələbəlik dövründə Azərbaycanın gələcək prezidenti ilə ailə qurub (onların üç övladı var).

Mehriban əvvəlcə Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda ixtisası üzrə işləyib, sonra xeyriyyəçiliklə məşğul olmağa başlayıb. Hazırda Azərbaycanın birinci xanımı, UNESCO-nun xoşməramlı səfiridir. Əlbəttə, ölkənin ən cazibədar xanımıdır”.

Məşhur “Cosmopolitan” jurnalı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı öz oxucularına belə təqdim edir.

“Cosmopolitan” jurnalının rəyinə görə, planetin ən parlaq və cazibədar birinci xanımları sırasına ABŞ Prezidenti Barak Obamanın xanımı Mişel Obama, Suriya Prezidenti Bəşər əl-Əsədin xanımı Əsma Əsəd, Meksika Prezidenti Enrike Penya Nyetanın xanımı Anxelika Rivera, Polşa Prezidenti Ancey Dudanın xanımı Aqate Kornhauzer-Duda və başqaları da daxildir.

***Fəridə ABDULLAYEVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Moskva*

# İCAPP-ın Qadınlar Qolunun 3-cü iclasının iştirakçıları Milli Məclisdə olub

Sentyabrın 3-də Milli Məclis Sədrinin müavini Bahar Muradova Bakıda keçirilmiş Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) Qadınlar Qolunun 3-cü iclasının iştirakçıları ilə görüşdü.

Qonaqları Milli Məclisin rəhbərliyi adından salamlayan Bahar Muradova Azərbaycanın evsahibliyi ilə keçirilən iclasın əhəmiyyətindən, müzakirəyə çıxarılan məsələlərin vacibliyindən söz açdı. İCAPP-ın Qadınlar Qolunun yaradılmasının önəmli olduğunu qeyd edən Bahar Muradova Asiya ölkələrinin qadın siyasətçilərinin iştirakı ilə keçirilən iclasın nəticələrini müsbət dəyərləndirdi. Bildirildi ki, ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyası təşkilatda öz layiqli yerini tutur və qarşıya qoyulan hədəfləri dəstəkləyir.

Bahar Muradova çıxışında ölkəmizin müstəqillik illərində dinamik inkişafı, dünya dövlətləri ilə əlaqələrin genişləndirilməsi barədə danışdı, qadın problemlərinin həlli istiqamətində müxtəlif layihələrin həyata keçirildiyini söylədi. Qeyd edildi ki, parlament diplomatiyası və parlament ənənələrinin formalaşması baxımından əhəmiyyətli işlər görülür. Azərbaycanda hələ ötən əsrin əvvəllərində qadınlara seçmək və seçilmək hüququ verilib. Bu gün parlamentdə qadın deputatlar səmərəli fəaliyyət göstərir.

Milli Məclis Sədrinin müavini İCAPP Qadınlar Qolunun toplantısında qadınlar arasında yoxsulluğun aradan qaldırılması, onların sağlamlığı, təhsili, siyasi iştirakçılığı ilə bağlı mühüm məsələlərin müzakirə edildiyini söylədi və bu məsələlərin həllində qadınların ictimai təmsilçilik hüququnun tanınmasının əhəmiyyətini vurğuladı. O, təşkilatın Qadınlar Qolunun məhz Bakıda təsis edildiyini vurğulayaraq, ölkəmizin qurumun tədbirlərinə evsahibliyi etməsinə hər zaman hazır olduğunu bildirdi.

Bahar Muradova Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Qadınlar Qolunun əvvəlki həmsədrləri olan Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızının və Koreya Respublikasının Sayenuri Partiyası rəhbərinin müavini Park İn-sokun fəaliyyətini təqdir etdi, qurumun yeni seçilmiş həmsədrlərinə uğurlar arzuladı.

Görüşdə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Qadınlar Qolunun baş katibi Çunq Ei-yonq Azərbaycan dövləti tərəfindən göstərilən diqqətə, dəstəyə görə təşəkkürünü ifadə etdi. İclasda çox önəmli məsələlərin müzakirə olunduğunu bildirən Çunq Ei-yonq bir sıra ölkələrdə gender bərabərliyi baxımından mövcud olan problemlərin aradan qaldırılmasında qadınların rolundan danışdı. Baş katib tədbirdə qəbul edilən yekun sənədin - “Asiyadakı qadınlar üzrə Bakı Bəyannaməsi”nin xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladı.

Tədbirdə çıxış edən qurumun yeni seçilmiş həmsədrləri - Türkiyənin Ədalət və İnkişaf Partiyasının qadınlar qolunun xarici işlər üzrə sədr müavini Məryam Goka, Nepal Konqresi Partiyası Beynəlxalq şöbəsinin müdiri Sucata Koirala, habelə keçmiş həmsədrlər - Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Məlahət İbrahimqızı və Koreyanın Sayenuri Partiyası rəhbərinin müavini Park İn-sok qadınların ictimai-siyasi həyatda rolunun artmasından danışdılar. Çıxış edənlər qurumun Bakıda keçirilən toplantısının qadınların ictimai həyatda iştirakçılığının genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladılar. Bildirdilər ki, Azərbaycan İCAPP-ın fəaliyyətinə ən böyük dəstək göstərən ölkələrdən biridir.

***“Azərbaycan”***

# “Nezavisimaya qazeta” erməni separatçılarının “bayram” əhvalını korladı


ПРАВДУ ГОВОРИТЬ ЛЕГКО И ПРИЯТНО

НГ РЕЛИГИИ

Тайна исчезновения книги Орбели раскрыта

Erməni separatçıları Dağlıq Qarabağın qondarma “müstəqilliyi”nin 24 illiyini qeyd etdiyi bir gündə - sentyabrın 2-də Rusiyanın nüfuzlu “Nezavisimaya qazeta” nəşri işğalçıların əhvalını korlayan məqalə ilə çıxış edib. Azərbaycan Prezidenti Administrasiyasının sektor müdiri Fuad Axundovun erməni yalanlarını ifşa edən geniş yazısında rəsmi İrəvanın uzun illər erməni ictimaiyyətindən gizlətdiyi tarixi faktlar və ilkin mənbələr açıqlanır.

Bildirilir ki, hazırda dünya elmi ilə erməni tarixşünaslığı arasında böyük bir uçurum yaranıb. Lakin hətta erməni mənşəli dünya alimləri belə Ermənistanın dəhlizlərində uydurulan yalançı tarixin təbliğindən imtina etdiyi bir vaxtda, rusiyalı politoloq Anton Yevstratov avqustun 19-da “Nezavisimaya qazeta”da yer almış məqaləsində bu yalanları yaymağa çalışıb.

Elə bu səbəbdən Fuad Axundov qərara gəlib ki, tarixi həqiqətləri əks etdirən bir sıra danılmaz faktları məhz “Nezavisimaya qazeta” vasitəsilə açıqlasın.

Söhbət o faktlardan gedir ki, onlara görə ötən əsrin əvvəlində Ermənistan Elmlər Akademiyasına rəhbərlik etmiş akademik İosif Orbeli öz kitabının bütün tirajını çapdan çıxar-çıxmaz məhv etməli olmuşdu. Elmi dairələrin 100 ilə yaxın idi ki, itmiş hesab etdiyi bu əsər ilk dəfə olaraq bir neçə il bundan əvvəl Fuad Axundov tərəfindən Sankt-Peterburq arxivlərində tapılaraq ictimailəşdirilib.

Həmin faktlara istinad edən Prezident Administrasiyasının sektor müdiri vurğulayır ki, rusiyalı politoloq Azərbaycanın işğal altında olan torpaqlarında yerləşən Qanzasar alban məbədini “orta əsrlərdə Ermənistanın dini və siyasi mərkəzi” adlandırmaqla kobud tarixi saxtakarlığa yol verib.

“Əgər Qanzasar doğrudan da ermənilərin siyasi və dini mərkəzi idisə, bəs onda Eçmiadzin və ya Vaqarşapat harada idi?”, - deyə F.Axundov soruşur və əlavə edir ki, orta əsrlərdə erməni dini mərkəzi buradan minlərlə kilometr uzaqda, Kiçik Asiyada, elə ermənilərin özlərinin yaşadıqları Fərat çayının sahillərində yerləşib.

Hətta ermənilərin indiki dini mərkəzi olan Eçmiadzin belə üç məbəddən ibarət Alban kilsəsinin xarabalıqlarında yaradılıb. Təsadüfi deyil ki, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi hökmdarlarının bütün fərmanlarında həmin ərazi “Azərbaycan ölkəsində yerləşən Üçkilsə” adlandırılır. Bu sənədlər uzaqda deyil, elə Ermənistanın özündə - əlyazmalar institutu Matenadaranda saxlanılır və onları vaxtilə erməni alimi Papazyan üzə çıxarıb.

Əgər Qanzasar, Yevstratovun iddia etdiyi kimi, erməni siyasi və dini mərkəzi olubsa, onda necə olub ki, o, Azərbaycan ərazisində yerləşib?!

Görünür, rusiyalı politoloqun rus imperatorları Birinci və İkinci Pyotr və Birinci Pavelin fərmanlarından da xəbəri yoxdur. Olsaydı, bilərdi ki, onların bütün fərmanlarında bu ərazilər Azərbaycan adlandırılıb. Bütün bunları Yevstratovun diqqətinə çatdıran Fuad Axundov ilk dəfə olaraq həmin fərmanların surətini də açıqlayıb.

Məqalənin orijinalı ilə *http://www.ng.ru/ng_-religii/2015-09-02/7_orbel.html* ünvanında tanış olmaq olar.

# Ölkələrarası iqtisadi-ticarət əlaqələri daha da inkişaf etdiriləcək



Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 3-də Pakistan Senatının xarici əlaqələr komitəsinin sədri senator xanım Nuzhat Sadiqi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) Qadınlar Qolunun 3-cü iclasında iştirak etmək üçün Bakıya gəldiyini deyən Nuzhat Sadiqi tədbirin yüksək səviyyədə təşkil edildiyini və faydalı müzakirələr aparıldığını diqqətə çatdırıb. O, Azərbaycanın dinamik inkişafına və əldə etdiyi nailiyyətlərə Pakistan xalqının səmimi qəlbdən sevindiyini qeyd edib.

Pakistan Senatının xarici əlaqələr komitəsinin sədri Azərbaycan Respublikasının birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Pakistandakı humanitar məsələlərə diqqət və qayğısının, o cümlədən bu ölkədə baş vermiş zəlzələ və sel daşqını kimi təbii fəlakətlər zamanı qardaş Azərbaycan xalqının göstərdiyi yardımın yüksək qiymətləndirildiyini deyib.

Elmar Məmmədyarov Azərbaycan ilə Pakistan arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək birgə səylərlə iqtisadi-ticarət əlaqələrinin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında sıx əməkdaşlığın mövcud olduğunu deyən nazir beynəlxalq hüququn prinsipləri və BMT Nizamnaməsinə uyğun olaraq, Pakistanın Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalı ilə bağlı birmənalı mövqeyinin və münaqişənin həlli prosesində ölkəmizin haqq işinə göstərdiyi dəstəyinin yüksək dəyərləndirildiyini vurğulayıb.

Görüşdə yüksək səviyyəli qarşılıqlı səfərlərin və parlamentlərarası münasibətlərin iki ölkə arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafına xidmət etdiyi diqqətə çatdırılıb.

# Azərbaycanla Böyük Britaniya arasında hərbi əməkdaşlıq və regional təhlükəsizlik məsələləri müzakirə olunub

Sentyabrın 3-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri İrfan Siddiq ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın işğal edilmiş ərazilərindəki qondarma separatçı rejimin nümayəndələrinin bəzi beynəlxalq qurumlar tərəfindən qəbul edilməsinin narahatçılıq doğurduğu diqqətə çatdırılıb. Həmçinin bölgədəki hərbi-siyasi vəziyyət, ölkələrimiz arasında hərbi əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparılıb.



Eyni zamanda, müdafiə naziri general-polkovnik Zakir Həsənovun Böyük Britaniyaya planlaşdırılan səfəri barədə məsələlər də müzakirə edilib.

# Müdafiə naziri “TurAz Qartalı-2015” təlimlərində iştirak edən şəxsi heyətlə görüşüb



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbər heyəti, eləcə də Türkiyənin ölkəmizdəki səfiri İsmayıl Alper Coşkun “TurAz Qartalı - 2015” birgə taktiki təlimlərində iştirak edən Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri aviasiya vasitələrinin yerləşdiyi aerodroma gəliblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə hər iki dövlətin himnləri səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkələrimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri təlimlərdə iştirak edən şəxsi heyəti salamlayaraq çıxışına ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” və türk xalqının öndəri Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” kəlamları ilə başlayıb.



Ölkələrimizin təhlükəsizliyi baxımından təlimlərin əhəmiyyətini qeyd edən müdafiə naziri bunun hərbi gücümüzün daha bir nümunəsi olduğunu vurğulayıb. O, təlim iştirakçılarına uğurlar arzulayaraq döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsindən məmnun qaldığını ifadə edib.

Təlimlərin Azərbaycanda keçirilməsinin vacibliyini vurğulayan səfir İsmayıl Alper Coşkun qürur hissi keçirdiyini bildirərək son illərdə belə birgə təlimlərin keçirilməsinin artıq ənənə halını almasını xüsusi qeyd edib.

Sonra təlimlərin məqsədi, şəxsi heyətin hazırlığı, yerləşməsi, cəlb edilən qüvvələr, icra edilən tapşırıqlar, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə brifinq təqdim olunub.

Müdafiə naziri uçuş və texniki heyətlə görüşərək döyüş aviasiyasına baxış keçirib, onların taktiki-texniki xüsusiyyətləri, tətbiqi imkanları, həmçinin müxtəlif təyinatlı atəş sistemlərinin hazırlıq səviyyəsi ilə maraqlanıb. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının uğurla davam etdirilməsi şərəfinə ənənəyə uyğun olaraq qurban kəsilib.

Silahlı Qüvvələrin mahnı və rəqs ansamblının geniş konsert proqramından sonra təlimlərdə iştirak edən aviasiya vasitələrinin nümunəvi uçuşları nümayiş olunub.

Sonra qonaqlar və təlim iştirakçıları birlikdə nahar ediblər.

# Azərbaycan və Türkiyə hərbi təyyarələrinin təlim uçuşları davam edir

“TurAz Qartalı - 2015” birgə taktiki təlimlərində Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin döyüş təyyarələrinin və vertolyotlarının uçuşları davam edir.

AZƏRTAC xəbər verir ki, təlimlərə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus “MiQ-29”, “F-16”, “Su-25” və “F-4E”, təyyarələri, “Mi-35”, “Mi-24” döyüş, “Mi-17”, Cougar AS532 və “Sikorski UH-60” axtarış-xilasetmə vertolyotları cəlb edilib.





Azərbaycan Hərbi Hava Qüvvələrinin zabitləri Elçin Axundov və Faiq Əliyev jurnalistlərə müsahibəsində bildiriblər ki, bugünkü təlimlərdə “Mi-17” və Cougar AS532 axtarış-xilasetmə vertolyotları təlim üzrə qəzaya uğrayan pilotun xilas edilməsi tapşırığını yerinə yetirib. “MiQ-29” və “F-16” qırıcı təyyarələri uzaq, orta və yaxın hava döyüşü təlimlərini həyata keçirib. “Su-25” və “F-4E” döyüş təyyarələri yerüstü hədəfləri məhv etmək üzrə təlimlərdə iştirak ediblər.

Təlimlərdə həmçinin “Mi-35”, “Mi-24” döyüş, “Mi-17” və “Sikorski UH-60” döyüş-nəqliyyat vertolyotları tərəfindən də təlim-döyüş tapşırıqları icra olunub.

Təcrübə mübadiləsi məqsədilə Azərbaycan təyyarəçiləri Türkiyə Hava Qüvvələrinin, Türkiyə təyyarəçiləri isə Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş təyyarələrində, vertolyotlarında təlim uçuşları yerinə yetiriblər.

Yüksək səviyyədə keçirilən təlimlər sentyabrın 18-dək davam edəcək.

## Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Bakıda səfərdə olan Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Uilyam Leysi Sinq Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoruna Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

**AZƏRTAC**

## Azərbaycanın xarici işlər naziri Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru ilə görüşüb



Sentyabrın 3-də xarici işlər naziri Elmar Məmmədyarov Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Uilyam Leysi Sinqin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Uilyam Leysi Sinq Beynəlxalq Miqrasiya Təşkilatının Bakı ofisinin 1990-cı illərin sonlarından fəaliyyət göstərdiyini qeyd edərək təşkilat ilə Azərbaycan arasında əlaqələrin uğurla inkişaf etdiyini nəzərə çatdırıb. O, Azərbaycanın miqrasiya siyasətinin həyata keçirilməsi, qanunvericilik və institusional bazanın yaradılması üzrə təcrübəsinin, qeyri-leqal miqrantların ləyaqətli və insani şəkildə saxlanması üzrə yaradılmış mərkəzin digər dövlətlər üçün nümunə olduğunu vurğulayıb.

Müasir dünyada XIX əsrə xas formada yalnız bir etnik tərkibdən ibarət olan dövlətin qeyri-mümkün olduğunu deyən Uilyam Leysi Sinq dövlətlərin müxtəlif etnik, dini və mədəni tərkiblə hesablaşmalı olduqlarını bildirib. Bu xüsusda o, Azərbaycanın zəngin multikulturalizm və tolerantlıq ənənələrinin dünya üçün örnək olduğunu deyib.

Xarici işlər naziri Elmar Məmmədyarov Ermənistanın yürütdüyü etnik təmizləmə siyasəti nəticəsində monoetnik tərkibli dövlət kimi mövcudluğu və ölkənin Azərbaycana qarşı təcavüzü nəticəsində bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi barədə məlumat verib. Nazir münaqişənin həlli üzrə danışıqlar prosesində azərbaycanlı qaçqın və məcburi köçkünlərin geri qayıtması məsələlərinin müzakirə mövzusu olduğunu qeyd edərək, onların mütləq şəkildə öz ata-baba yurdlarına qayıdacaqlarını vurğulayıb. Bu xüsusda Dünya Bankı və digər qurumlarla məsləhətləşmələrin aparıldığını söyləyib.

Elmar Məmmədyarov Ermənistan tərəfindən Suriyadan olan erməni əsilli qaçqınların qeyri-qanuni şəkildə işğal olunmuş Azərbaycan ərazilərində yerləşdirilməsinə toxunaraq, bu məsələyə Beynəlxalq Miqrasiya Təşkilatı və digər beynəlxalq qurumların ciddi diqqət yetirməsinin vacibliyini bildirib. O, əlavə edib ki, işğal olunmuş ərazilərdə məskunlaşma siyasətinin aparılması və məqsədyönlü şəkildə demoqrafik tərkibin dəyişdirilməsi cəhdləri beynəlxalq humanitar hüquqa əsasən qadağandır.

Elmar Məmmədyarov müstəqilliyinin ilk illərində əlverişli coğrafi mövqeyinə görə Azərbaycanın qeyri-leqal miqrasiya üçün daha çox tranzit məntəqəsi kimi maraq kəsb etdiyi halda, əldə etdiyi iqtisadi və sosial inkişaf nəticəsində Azərbaycanın indi potensial qeyri-leqal miqrasiya üçün cəlbedici ölkə olduğunu qeyd edib. Nazir əvvəlcədən həyata keçirilən planlı miqrasiya siyasəti və bu sahədə aparılmış institusional islahatlar nəticəsində Azərbaycanda miqrasiya məsələlərinin qanun çərçivəsində effektiv şəkildə tənzimləndiyini deyib.

Azərbaycanın Beynəlxalq Miqrasiya Təşkilatı ilə əlaqələrinin inkişafına əhəmiyyət verdiyini deyən Elmar Məmmədyarov ölkəmizin uğurlu miqrasiya siyasəti, zəngin multikulturalizm və tolerantlıq ənənələri üzrə öz təcrübəsinin digər üzv dövlətlərlə bölüşməyə hazır olduğunu söyləyib.

Görüşdə son dövrlərdə Avropanı bürüyən miqrasiya problemləri, miqrantların dini mənsubiyyətə görə təsnif edilməsi, Aralıq dənizində miqrantların kütləvi ölümü halları və qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

## Azərbaycan ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb

Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Uilyam Leysi Sinqin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində Dövlət Miqrasiya Xidmətində olub.

Xidmət rəisi Firudin Nəbiyev ilə görüşdə Azərbaycan və Beynəlxalq Miqrasiya Təşkilatı arasında əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb.

Uilyam Leysi Sinq Azərbaycanda əcnəbilərin hüquqlarının qorunması sahəsində görülən işlərin təqdirəlayiq olduğunu vurğulayıb.

Qonaqlar Dövlət Miqrasiya Xidmətinin Heydər Əliyev Muzeyi və qanunsuz miqrantların saxlanılması mərkəzinin fəaliyyəti ilə tanış olublar.

**AZƏRTAC**

## *Uilyam Leysi SİNQ:* “Azərbaycanın miqrasiya idarəetməsi sahəsində təcrübəsi Avropanın digər dövlətləri üçün nümunədir”

Azərbaycanda miqrasiya sahəsində yüksək səviyyədə fəaliyyət həyata keçirilir. Azərbaycanın miqrasiya idarəetməsi sahəsində təcrübəsi Avropanın digər dövlətləri üçün nümunədir. Sabitlik və sülhün qorunmasına görə Azərbaycan bütün Avrasiyada nümunəvi ölkədir. Dövlətinizin başçısının dəstəyi olmadan bu sahədə uğur qazanmaq mümkün olmazdı. Bu fikri Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Uilyam Leysi Sinq ölkəmizə səfərinin yekunlarına dair sentyabrın 3-də keçirdiyi mətbuat konfransında məlumat verib.

Əvvəlcə Azərbaycan Dövlət Miqrasiya Xidmətinin rəis müavini Pərviz Musayev Azərbaycan hökumətinin dəvəti ilə ölkəmizə səfərə gələn Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Uilyam Leysi Sinqin rəhbərlik etdiyi nümayəndə heyətinin iki gün ərzində məhsuldar görüşlər keçirdiyini vurğulayıb. O bildirib ki, görüşlərdə bir çox vacib məsələlər ətrafında fikir mübadilələri aparılıb. Eyni zamanda, Beynəlxalq Miqrasiya Təşkilatı ilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti arasında könüllü qayıdışla bağlı pilot layihənin həyata keçirilməsinə dair razılıq əldə olunub. Yaxın zamanlarda bu layihənin həyata keçirilməsinə başlanılacaq.

Cənubi Qafqaza ilk səfərini Azərbaycandan başlamaqdan məmnunluq duyduğunu deyən Uilyam Leysi Sinq ölkəmizdə yüksək qonaqpərvərliklə qarşılandığını diqqətə çatdırıb. Dünyanın müxtəlif bölgələrində baş verən münaqişələr nəticəsində humanitar böhranın, miqrant probleminin yarandığını vurğulayan baş direktor bunun qarşısının alınması üçün lazımi tədbirlərin görülmədiyini qeyd edib. O, rəhbərlik etdiyi qurumun bu problemin həlli ilə bağlı Avropa İttifaqına üzv ölkələrlə mütəmadi müzakirələr apardığını bildirib.

Azərbaycanda uğurlu miqrasiya idarəetməsini, zəngin multikulturalizm və tolerantlıq ənənələrini yüksək qiymətləndirən Uilyam Leysi Sinq Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində sosial-iqtisadi sahədə əldə olunan uğurları məmnunluqla qeyd edib. Azərbaycanın bu ilin iyununda I Avropa Oyunlarına, mayda Asiya İnkişaf Bankının (AİB) Rəhbərlər Şurasının 48-ci İllik Toplantısına uğurla evsahibliyi etdiyini vurğulayan baş direktor 2017-ci ildə ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının da yüksək səviyyədə təşkil olunacağına əminliyini bildirib.

Baş direktor Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ölkəmizdə bir milyondan çox insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü vurğulayaraq, respublikamızda onlar üçün yeni salınmış qəsəbələrdən birində yaşayış şəraiti ilə tanış olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, Azərbaycan dövləti tərəfindən qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşmasına göstərilən diqqət və qayğı humanitar baxımdan çox müsbət haldır.

Dövlət Miqrasiya Xidmətinin qanunsuz miqrantların saxlanılması mərkəzlərində olduğunu və oradakı əcnəbi vətəndaşlarla görüşdüyünü vurğulayan Uilyam Leysi Sinq deyib: “Saxlama mərkəzlərində hər cür şərait yaradılıb. Bir çox ölkədə miqrantların saxlanılması mərkəzlərində olmuşam. Lakin deməliyəm ki, bu, mövcud olan ən yaxşı saxlanılma mərkəzlərindən biridir. Orada saxlanılan şəxslərin bütün ehtiyacları təmin edilib. Mən belə yüksək şəraiti olan saxlanılma mərkəzlərinə görə Azərbaycan Hökumətinə, Dövlət Miqrasiya Xidmətinə minnətdarlığımı bildirirəm. Avropanın digər ölkələrində miqrantların saxlanılma mərkəzləri ilə müqayisə edərək məsləhət görərdim ki, bu məsələdə Bakını nümunə götürsünlər. Gələcəkdə baş verə biləcək miqrasiya probleminə Azərbaycanın hazırlıq səviyyəsi çox yüksəkdir.

Sonda jurnalistlərin sualları cavablandırılıb.

**AZƏRTAC**

# Xədicə İsmayılova peşə fəaliyyətinə görə deyil, konkret cinayət törətdiyi üçün həbs olunub

## *ABŞ və Qərbdə imperializm siyasətindən hələ də əl çəkə bilməyən ölkələr “insan hüquqları”, “demokratiya” kimi məsələlərdən konyunktur maraqlarını gerçəkləşdirmək üçün istifadə edirlər*

Azərbaycanda siyasi və hüquqi azadlıqların təmini istiqamətində ardıcıl, sistemli addımlar atılır. Bir çox Şərq ölkələrindən fərqli olaraq Azərbaycanda iqtisadi inkişaf və demokratikləşmə prosesləri bir-birini tamamlayır. İnsanların konstitusion hüquq və azadlıqlarının təminatı ilə bağlı heç bir problem yoxdur. Əlbəttə, keçid dövrünü uğurla başa vuran ölkəmizin qarşıda həll etməli olacağı işlər də var və bunu ölkə iqtidarı da açıq etiraf edir. Cəmiyyəti qayğılandıran problemlər tədricən həllini tapır, ölkə başçısının siyasi iradəsi ilə korrupsiya, rüşvətxorluq, inhisarçılıq meyillərinə qarşı mübarizə gücləndirilir.

Son vaxtlar antiazərbaycançı şəbəkənin, o cümlədən ermənipərəst dairələrin ölkəmizin əleyhinə yenidən fəallaşdığını görürük. Bu kampaniyada ABŞ və Qərb ölkələrinin bəzi rəsmi dairələri də fəal iştirak edirlər. Azərbaycanın guya qeyri-demokratik ölkə olduğu, söz və məlumat azadlığının məhdudlaşdırıldığı, jurnalistlərin və QHT nümayəndələrinin guya peşə fəaliyyətinə görə “həbs edildiyi” ilə bağlı subyektiv mülahizələrdən ibarət, dezinformasiya xarakterli məlumatların dövriyyəyə buraxılması təbii ki, xoş niyyətdən irəli gəlmir. Azərbaycanla bağlı ən adi məsələnin belə şişirdilməsinin, qərəzli şəkildə təqdim olunmasının arxasında müəyyən geopolitik niyyətlərin dayandığı heç kimə sirr deyil. Əslində, bu proseslərin müəyyən ölkələrdə işə salınmasına cəhd məlum ssenarilərin tərkib hissəsi olduğunu da diqqətdən qaçırmaq olmaz. Məhz indiki mərhələdə Azərbaycanın hədəf seçilməsi ölkəmizin regionda əsas güc sahibi kimi çıxış etməsi, habelə respublikamızın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması ilə şərtlənir.

### “Azadlıq” qəzetinin Xədicəsi, yaxud da Ə.Kərimlinin növbəti siyasi şousu

Antimilli qüvvələrin və onların ölkəmizdəki “beşinci kolon”unun təbliğat ruporuna çevrilən “Azadlıq” qəzeti Leyla və Arif Yunusların ardınca indi də “Azadlıq” radiosunun əməkdaşı Xədicə İsmayılovanın müdafiəsinə qalxıb. Həmişə olduğu kimi, bu dəfə də adıçəkilən qəzetdə X.İsmayılovanın məhkəmədə cinayət əməllərinin təsdiqlənməsinə baxmayaraq əssasız iddialar öz əksini tapıb. Zaman-zaman nankorlara tribuna verən “Azadlıq” qəzetində ermənilərə açıq sevgisini ifadə edən X.İsmayılovanın müdafiə olunması həqiqətən də ikrah hissi doğurur. Qeyd edək ki, Xədicə İsmayılova AXCP sədri Əli Kərimlinin qohumu kimi tanınır və bu amil də onun adıçəkilən qəzetdə müdafiə edilməsində az rol oynamır. X.İsmayılovanın vaxtilə Ə.Kərimlinin nəzarətində olan qəzetlərin birində “Svetlana” imzası ilə Ə.Elçibəyin xəstəliyi ilə bağlı materialları yayması da hər kəsə bəllidir. Qısa təhlil aparanda məlum olur ki, “yurdçu” X.İsmayılova ilə Ə.Kərimlini təkcə qohumluq əlaqələri deyil, ən yaxın silahdaşlarına qarşı xəyanət etmək amili də birləşdirir.

X.İsmayılovanın əsl simasını Azərbaycan ictimaiyyəti 2014-cü ildə ATƏT-in Varşavada keçirilən tədbirində bir daha gördü. Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri Əhməd Şahidovun çıxışı zamanı Xədicə İsmayılovanın 10-a yaxın dostu ilə etdiyi hərəkət onun erməni sevgisinin açıq nümayişi olmuşdu. Sözügedən toplantıda Ə.Şahidov çıxışa başlayarkən X.İsmayılova və erməni dostları ayağa qalxaraq tədbir iştirakçılarına arxa çevirmişdilər. Tədbir iştirakçılarının da böyük narazılığına səbəb olan bu olaydan özünü itirməyən Ə.Şahidov çıxışını davam etdirmiş və Ermənistanın işğalçı siyasətini ifşa etmişdi.

Milli xəyanət yolunu tutan Leyla və Arif Yunusları, eləcə də zaman-zaman Azərbaycanın imicinə zərbə vurmağa çalışan Xədicə İsmayılovanı cəmiyyətə “ciddi siyasi fiqurlar” kimi sırımağa çalışan antiazərbaycançı şəbəkə və onların yerlərdəki təbliğat ruporları bu dəfə də arzularını reallaşdıra bilmədilər. Aşkar görünür ki, “beşinci kolon” təmsilçiləri adıçəkilən şəxslərin həbsindən siyasi spekulyasiyalar etməklə “iqtidarın düşməni” obrazını yaratmağa, xaricdəki ağalarının rəğbətini qazanmağa, daha çox qrant almağa çalışırlar. Məhkəmə prosesindən dərhal sonra həmin qüvvələrin müəyyən Avropa qurumlarından dəstək istəməsi, həmçinin konkret cinayət törətmiş şəxslər barədə qondarma “siyasi məhbus” imici yaratmaları pərdəarxası məqamları üzə çıxarmağa imkan verir.

Xatırladaq ki, Bakı Ağır Cinayətlər Məhkəməsində “Azadlıq” radiosunun əməkdaşı Xədicə İsmayılovaya qarşı irəli sürülən ittihamlar məhkəmə prosesi zamanı tam sübuta yetirilib. Cinayət Məcəlləsinin 125-ci maddəsi (özünü öldürmə həddinə çatdırma) ilə bağlı irəli sürülən ittihamlar isə tam sübuta yetirilmədiyi üçün ona bəraət verilib. Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və israf etmə - külli miqdarda törədildikdə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1 (vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə yekun olaraq Xədicə İsmayılova 3 il müddətinə rəhbər vəzifə tutumaqdan məhrum edilməklə 7 il 6 ay müddətində azadlıqdan məhrum olunub. O, cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkəcək.

### Xədicə İsmayılovanın məhkəməsindən siyasi spekulyasiya etmək cəhdi

Xədicə İsmayılovanın məhkəməsinin nəticəsi ilə bağlı ABŞ-ın BMT yanındakı nümayəndəsi Samanta Pauer, Birləşmiş Krallığın Avropa üzrə naziri David Lidinqton narahat olduqlarını bildiriblər və Azərbaycana bir neçə çağırış yönəldiblər. Həmçinin ABŞ Dövlət Departamenti də məhkəmə prosesi zamanı cinayətkar əməlləri tam sübuta yetirilən X.İsmayılovanın həbsini insan hüquqlarının “məhdudlaşdırılması” kimi qiymətləndirib.

Bax bu, sual doğurur. Bu gün ABŞ və Qərb ölkələrinin əksəriyyətində insan hüquq və azadlıqlarının təminatı ilə bağlı ciddi problemlərin mövcudluğu, insanların sosial hüquqlarının, habelə sərbəst toplaşmaq hüququnun kobud şəkildə pozulması Avropa parlamentarilərinə yaxşı məlumdur. Onlar nədənsə bu gün Almaniya, Yunanıstan, İspaniya, Fransa, İsveç və digər ölkələrdə sosial hüquqları uğrunda dinc mübarizə aparan insanların mitinq və yürüşlərinin zorakılıqla dağıdılması, müsəlmanlara qarşı ayrı-seçkiliyin, dözümsüzlüyün hökm sürməsi, islamofobiya, dini və etnik dözümsüzlük hallarını nədənsə “görmürlər”.

I Avropa Oyunları zamanı da bəzi beynəlxalq qurum və dövlətlərin mötəbər idman tədbirini gözdən salmaq, onun əhəmiyyətini azaltmaq, “insan haqları”nın müdafiəsi pərdəsi altında gizlənərək öz maraqlarını gerçəkləşdirmək niyyəti güddüklərinin şahidi olmuşduq. Həmin vaxt ABŞ-da ölkəmizə qarşı “qara piar” kampaniyasının təşkil olunması “National Endowment for Democracy” təşkilatına həvalə edilmişdi. ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və dövlət büdcəsindən maliyyələşdirilən NED uzun illərdir ki, Azərbaycanda “beşinci kolon”un formalaşdırılmasının fəal iştirakçılarından biri rolunda çıxış edir. Bu təşkilat vasitəsilə Azərbaycandakı “tərəfdaş” QHT və media vasitələrinə ABŞ və Qərb mənbələrindən milyonlarla dollar vəsait ötürülüb.

“Freedom House” təşkilatının sabiq rəhbəri Devid Kramer, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kozlariç, “beşinci kolon”un parlaq nümayəndələrindən olan və hazırda Amerikada yaşayan Elmar Şahtaxtinski də daxil olmaqla bir qrup şəxsin ABŞ dövlət katibi Con Kerriyə müraciət ünvanlaması da layihənin ilkin konturlarını müəyyənləşdirməyə imkan vermişdi. Kampaniyanın əsas fəaliyyət mərkəzi rolunu ABŞ-ın dövlət katibi Con Kerrinin Konqresdəki ofisi oynamışdı. Con Kerrinin islamofob, ermənilərə xüsusi yaxınlığı ilə seçilən, ABŞ-dakı bütün ermənipərəst təşəbbüsləri cidd-cəhdlə dəstəkləyən şəxs kimi tanındığını və bir çox belə təşəbbüslərin müəllifi olduğunu nəzərə alaraq, bu məlumat heç də təəccüblü görünməməlidir. Bu fakt sadəcə olaraq ABŞ-ın müstəqil dövlətlərin daxili işlərinə qarışmadığı və hakimiyyət çevrilişi planları hazırlamadığı barədə ən yüksək səviyyələrdə söylənilən fikirlərin üzərindən birmənalı xətt çəkir.

ABŞ-da insan hüquqlarının pozulması hallarının adiləşməsinə dair nümunə kimi 2014-cü ilin avqustunda Missuri ştatının Ferqyuson şəhərində afroamerikalı 18 yaşlı gənc Maykl Braunun polis əməkdaşı Darren Uilson tərəfindən güllələnərək öldürülməsini göstərmək olar. Məhkəmənin polisi azadlığa buraxması Ferqyusonda həftələrlə davam edən etiraz aksiyalarına və iğtişaşlara səbəb oldu. Həmin hadisələr zamanı yüzlərlə etirazçı həbs olundu, çoxsaylı işgəncələrə və zorakılıqlara məruz qaldı. Ferqyuson hadisələrini işıqlandıran jurnalistlər də polisin özbaşınalığından və zorakılığından əziyyət çəkdilər. Ferqyuson polisi iğtişaşları yatırarkən “The Washington Post” və “The Huffington Post” qəzetlərinin jurnalistlərini heç bir səbəb olmadan saxlamış və polis məntəqəsinə aparmış, “əl-Cəzirə”nin jurnalistinin qarşısına isə qaz bombası atmışdı. Bu yaxınlarda Virciniya ştatında jurnalist və operatorun gündüz saatlarında güllələnməsi də deyilənlərə əlavə ola bilər.

2015-ci il aprelin 19-da ABŞ-ın Merilend ştatının Baltimor şəhərində isə 25 yaşlı Freddi Gray adlı qaradərili gəncin polislər tərəfindən qətlə yetirilməsindən sonra kütləvi etirazlar yenidən vüsət almış və Baltimorda fövqəladə vəziyyətin elan edilməsinə, Milli Qvardiyanın şəhərə yeridilməsinə səbəb olmuşdu. Baltimordakı iğtişaşlar zamanı 210 nəfər həbs edilmiş, çoxsaylı insan təzyiqlərə və zorakılığa məruz qalmışdı. ABŞ-da insan haqlarının vəziyyəti barədə hazırlanan bir sıra hesabatlar da bu ölkədəki gerçəkliyi tam çılpaqlığı ilə ortaya qoyur. BMT-nin İnsan Hüquqları Komitəsi ABŞ-ı Vətəndaş və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın bir sıra müddəalarına əməl etməməkdə günahlandırıb. Britaniyalı professor Naycel Rodlinin başçılıq etdiyi komitə Vaşinqtonu sosial şəbəkələrə qanunsuz nəzarət etməkdə ittiham edib, bunu insanların şəxsi həyatına birbaşa müdaxilə kimi qiymətləndirib. BMT komitəsinin ittihamı onu göstərir ki, Amerika nəinki öz ərazisində, hətta dünyanın müxtəlif regionlarında belə insanların fəaliyyətinə nəzarət edir. Bu əsasda onları müəyyən ideoloji istiqamətə yönəldir, təzyiqlər göstərir, qanunsuz əməllərə təhrik edir. Bunların nəticəsində minlərlə insanın şəxsi həyatı pozulur, onlar təhlükələrə məruz qalırlar. O cümlədən “rəngli inqilablar” adı altında ayrı-ayrı xarici dövlətlər xarabalığa çevrilir. Təcrübə göstərir ki, həmin proseslərdə çoxlu sayda insan həyatını itirir, ölkələr uzunmüddətli daxili ixtilaflardan əziyyət çəkirlər. Buna misal olaraq İraq, Suriya, Ukrayna, Liviya və başqa ölkələrdə cərəyan edən prosesləri göstərmək olar.

Media mənsubları ilə bağlı qanun pozuntuları Avropa ölkələrində daha çoxdur. Belə ki, yalnız 2015-ci ilin səkkiz ayı ərzində Avropa İttifaqına üzv və namizəd ölkələrdə jurnalistlərə qarşı müxtəlif kateqoriyalar üzrə 931 hadisə qeydə alınıb. Bunlardan 23-ü İngiltərənin, 55-i Fransanın, 61-i Almaniyanın, 28-i İspaniyanın, 6-sı Portuqaliyanın, 7-si Avstriyanın, 73-ü İtaliyanın, qalanları isə digər ölkələrin payına düşür. Hadisələrin mahiyyətinə gəlincə isə, onlardan 7-si ölüm hadisəsi, 126-sı fiziki cəza, 80-i həbs, 181-i isə senzura ilə bağlı olub. Nədənsə, Birləşmiş Krallığın Avropa üzrə naziri David Lidinqtonun bu qanun pozuntuları ilə bağlı bir dəfə də olsun bəyanatının şahidi olmamışıq.

Son vaxtlar miqrantlarla bağlı proseslərin yaranmasının, indiki böhran həddinə çatmasının, onların bir çoxunun həlak olmasının məsuliyyəti Aİ-nin üzərinə düşür. Bu hadisənin həm siyasi, həm insan hüquqları baxımından təhlil edilib nəticə çıxarılması Aİ strukturlarının bir nömrəli vəzifəsidir. Cənab Lidinqton və digər məsul rəsmilər bu məsələ ilə məşğul olsalar, daha yaxşı olar. Bütün bunlar Azərbaycana qarşı qərəzli və məkrli niyyətlərin göstəricisidir.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib: “Azadlıq” radiosunun əməkdaşı Xədicə İsmayılova jurnalist fəaliyyəti ilə bağlı olmayan konkret cinayət əməlləri törətməkdə ittiham olunub, məhkəmə prosesi zamanı onun günahı tam sübuta yetirilib və müvafiq qərar çıxarılıb. Buna görə də bəzi beynəlxalq təşkilatların, ayrı-ayrı dövlətlərin rəsmi nümayəndələrinin, həmçinin bir sıra beynəlxalq hüquq-müdafiə təşkilatlarının məhkəmənin X.İsmayılova ilə bağlı qərarını siyasiləşdirmək cəhdləri yolverilməzdir”.

Bütün bunlar bir daha təsdiqləyir ki, ABŞ və Qərbdə imperializm siyasətindən hələ də əl çəkə bilməyən ölkələr “insan hüquqları”, “demokratiya” kimi məsələlərdən konyunktur maraqlarını gerçəkləşdirmək üçün istifadə edirlər. Əslində, baş verənləri bəzi Qərb dövlətlərinin Yaxın Şərq ölkələrindəki siyasi hadisələrə kobud müdaxiləsi fonunda da qiymətləndirmək mümkündür. Bu hadisələr bir daha sübut edir ki, demokratiya bayrağı altında müəyyən ölkələrin öz geosiyasi maraqlarını gerçəkləşdirmək niyyətləri dünyada imperializmin yeni dalğasına çevrilib.

Ölkəmizə qarşı hücumların da müəyyən geosiyasi proseslərlə bağlı olduğu danılmaz reallıqdır. Məsələ burasındadır ki, qarşıya qoyduğu bütün hədəflərə uğurla yetişən respublikamız özünəməxsus milli inkişaf modeli ilə müasir dünyanın yeni iqtisadi fenomeninə çevrilmək əzmi nümayiş etdirir. Son 12 ildə ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev praqmatik və rasional düşüncəli lider kimi davamlı siyasi sabitliyə, təhlükəsizliyə, vətəndaş sülhünə, habelə güvənli xarici siyasətə nail olmaq üçün ilk növbədə iqtisadiyyatın sürətli inkişafını təmin edib. İqtisadi sahədə əldə olunan uğurlar ölkədə vətəndaşlarla iqtidarın mənəvi birliyini gücləndirməklə yanaşı, həm də ölkəmizin xarici siyasət sahəsində inamlı, qətiyyətli mövqeyini təmin edir.

Azərbaycanın bölgənin faktiki güc mərkəzinə çevrilməsi ilə heç cür barışa bilməyən bədnam qüvvələr isə narahatlıqlarını ən müxtəlif formada izhar etdirir, ölkəmizə qarşı “təzyiq rıçaqları” tapmağa çalışırlar. Hələ də sadəlövhcəsinə ümid edirlər ki, hansısa süni problemlər uydurmaqla ölkə rəhbərliyinə təsir imkanları qazana bilərlər.

Azərbaycanda mütləq əksəriyyətin etimadını qazanan, sürətli sosial-iqtisadi inkişafı təmin edən, ictimai-siyasi sabitliyi qoruyub saxlayan, qlobal enerji layihələrinin gerçək təminatçısına çevrilən, ölkənin beynəlxalq arenada nüfuz və mövqelərini möhkəmləndirən güclü hakimiyyətin mövcudluğu antiazərbaycançı şəbəkəyə qətiyyən sərfəli deyil. Regionda maraqlarını gerçəkləşdirmək istəyən müəyyən dairələr Azərbaycanda “beşinci kolon”un “xidmət”lərindən istifadə etmək istəyirlər. Onlar bu cılız maraqlarını reallaşdırmaq üçün yerli təbliğat ruporlarından da istifadə edirlər. Törətdikləri konkret cinayət əməllərinə görə həbs edilən Arif və Leyla Yunusların timsalında biz bu kampaniyanın artıq şahidi olmuşuq. İndi isə eyni ssenari ilə “Azadlıq” qəzeti Xədicə İsmayılovadan “qəhrəman” obrazı yaratmaqla spekulyasiya etməkdədir.

Azərbaycan daim beynəlxalq hüquq norma və prinsiplərindən çıxış edir və heç bir dövlətin daxili işlərinə qarışmır. Bu faktla hər bir vətənpərvər azərbaycanlı fəxr edə bilər ki, respublikamız milli maraqları ilə bağlı məsələlərdə heç bir dövlətə, hətta ən yaxın müttəfiqlərinə də güzəştə getmək niyyətində olmadığını dəfələrlə sübuta yetirib. Bu prinsipial və qətiyyətli yanaşma ölkənin daxili işlərinə kobud şəkildə nüfuz etməyə, bu yolla iqtisadi-siyasi maraqlarını gerçəkləşdirməyə çalışan bəzi dövlətlərə, beynəlxalq qurumlara, transmilli korporasiyalara münasibətdə özünü daha kəskin şəkildə göstərib. Ölkə rəhbərliyi bu gün də iqtisadi və siyasi islahatları hansısa dövlətin və ya beynəlxalq qurumun diktəsi altında deyil, elmi prinsiplərlə reallaşdırdığı mükəmməl strategiya əsasında aparır.

***Elnur HACALIYEV,***
***“Azərbaycan”***

# Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib

Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar vurğulanıb, bəzi kadr və digər təşkilati məsələlərə baxılıb.

Şuradan AZƏRTAC-a bildiriblər ki, iclasda səlahiyyət müddətləri başa çatan bir sıra məhkəmə sədrlərinin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı prinsipial təhlillər aparılıb, onların işinin yerində öyrənilməsi nəticələri, yuxarı instansiya məhkəmələrinin rəyləri, Ədliyyə Nazirliyinin təqdim etdiyi və digər məlumatlar ətraflı müzakirə olunub. Aparılmış qiymətləndirmə nəticələri üzrə həmin məhkəmə sədrlərinin fəaliyyəti məqbul hesab olunaraq yenidən təyinatları məqsədəmüvafiq hesab edilib.

Həmçinin iclasda hakimlər barədə intizam icraatlarına baxılaraq kobud qanun pozuntularına və korrupsiyaya şərait yaradan hallara yol verdiklərinə görə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi Anar Rzayevə və Mingəçevir Şəhər Məhkəməsinin hakimi Hüseyn Mirzəliyevə töhmət verilib, vətəndaşların haqlı narazılığına səbəb olan ciddi nöqsanlara, o cümlədən süründürməçilik hallarına yol verdiyinə görə bir hakim barədə intizam icraatı başlanılıb.

# İranın görkəmli din xadimi İmamzadə dini-memarlıq kompleksində olub

İran İslam Respublikasının tanınmış din xadimi Ayətullahul-Uzma Şeyx Hüseyn Nuri Həmədani Gəncəyə səfəri çərçivəsində sentyabrın 3-də İmamzadə dini-memarlıq kompleksində olub.

İranlı qonaq Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin müşayiəti ilə İmamzadə dini-memarlıq kompleksində dəfn olunmuş beşinci İmam Məhəmməd Bağırın oğlu İbrahimin məzarını ziyarət edib, ruhuna dualar oxuyub.

Sonra Hüseyn Nuri Həmədani kompleksdə aparılan yenidənqurma işləri ilə tanış olub. Məlumat verilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində İmamzadə dini-memarlıq kompleksi əsaslı şəkildə yenidən qurulur. Kompleksdə 4 hissədən ibarət məscid, mehmanxana, qurbangah inşa edilib. 36 kiçik, 5 böyük günbəzi olan məsciddə nəqqaşlıq və xəttatlıq işləri artıq başa çatıb. Şahzadə İbrahimin buradakı qəbri isə qapalı şəraitdə qorunaraq ətrafında 28 metr hündürlüyündə günbəz və 38 metrlik minarəsi olan ziyarətgah inşa edilir. Bundan başqa, kompleksin ərazisində yeni mərasim və ehsan zalı da tikilir.

Kompleksdə aparılan işlərə görə razılığını bildirən İranın görkəmli din xadimi Hüseyn Nuri Həmədani burada günorta namazı qılıb.

***AZƏRTAC***

# G20 qrupunun Ankarada keçirilən toplantısında Azərbaycanın əmək və məşğulluq siyasəti barədə ətraflı məlumat verilib

Sentyabrın 3-də Ankarada Türkiyənin sədrliyi ilə fəaliyyət göstərən G20 qrupunun üzvü olan və dəvət edilən ölkələrin əmək və məşğulluq nazirlərinin toplantısı işə başlayıb. Toplantıda Azərbaycanı əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edir.

Azərbaycanın xüsusi dəvətli qonaq statusunda təmsil olunduğu qrupun bu iclası Türkiyənin əmək və əhalinin sosial müdafiəsi naziri Əhməd Ərdəmin açılış nitqi ilə işə başlayıb. Son illər dünyada sürətlə genişlənən iqtisadi böhran şəraitində insanların məşğulluğunun qorunması, yeni iş yerlərinin yaradılması, əmək şəraitinin yaxşılaşdırılması və s. istiqamətlərdə qarşıda duran vəzifələrdən danışan türkiyəli nazir toplantıya uğurlar arzulayaraq əminliklə qeyd edib ki, G20 qrupunun səmərəli fəaliyyəti yaxın gələcəkdə üzv və dəvətli ölkələrin sosial həyatına böyük töhfələr verəcək.

Sonra G20-yə Türkiyədən əvvəl sədrlik edən Avstraliya və Türkiyədən sonra qrupa rəhbərlik edəcək Çinin toplantıdakı təmsilçiləri çıxış ediblər.

Daha sonra gündəlikdə duran məsələlərin müzakirəsinə başlanılıb.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov tədbirin insan resurslarının inkişafına sərmayənin artırılmasına dair “G20 üzrə Bacarıqlar Strategiyası”na həsr olunan sessiyasında çıxış edib. Nazir ilk növbədə, dünyanın aparıcı dövlətlərinin beynəlxalq iqtisadi əməkdaşlıq məsələləri üzrə qərar qəbul edici forumu olan G20 platformasına Azərbaycan Respublikasının dəvət olunmasına görə Türkiyə hökumətinə minnətdarlığını ifadə edib. O, G20 ölkələrinin hazırkı dövr üçün “İnklüzivlik, implementasiya və investisiyalar” prioritetləri çərçivəsində güclü və dayanıqlı, kifayət qədər iş yerləri olan iqtisadiyyatın formalaşdırılması əsasında işsizliyin azaldılması, sosial cəhətdən həssas əhali qruplarının əmək bazarına inteqrasiyası, bacarıqların artırılması və əmək məhsuldarlığının yüksəldilməsi məsələlərinin Azərbaycan üçün də çox əhəmiyyətli olduğunu vurğulayıb.

S.Müslümov Prezident İlham Əliyevin uğurlu iqtisadi inkişaf strategiyası nəticəsində müasir infrastruktur və çoxsaylı enerji layihələrinin icrası, investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun və regionların, sahibkarlığın inkişafı sahəsində əldə olunan nailiyyətlərin ölkədə dayanıqlı iqtisadi artım üçün möhkəm təməl yaratdığını diqqətə çatdırıb. 2004-cü ildə Cənubi Qafqaz iqtisadiyyatının yarısının, 2014-cü ilin sonunda isə 75 faizinin Azərbaycanın payına düşdüyünü qeyd edən nazir bildirib ki, Davos İqtisadi Forumu 2014-cü il üçün hesabatında Azərbaycanı iqtisadiyyatın rəqabətə davamlılığına görə 144 ölkə arasında 38-ci yerə layiq görüb, “Moodys”, “Fitch Ratings”, “Standart and Poors” kimi reytinq agentlikləri isə ölkəmizin reytinqini davamlı olaraq artırıb.

Azərbaycan hökuməti tərəfindən düzgün fiskal siyasətin həyata keçirilməsi, o cümlədən sahibkarlığın inkişafı üçün güzəştli kreditlərin verilməsi, iqtisadi fəaliyyət iştirakçılarına sağlam rəqabət şəraitinin yaradılması, antiinhisar və digər iqtisadi münasibətlərin tənzimlənməsi nəticəsində son 12 ildə ölkədə ümumi daxili məhsul 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə artıb. Bu dövrdə respublikada 1 milyon 400 min yeni iş yeri açılıb, iqtisadiyyata 180 milyard dollar investisiya yatırılıb, strateji valyuta ehtiyatları xarici dövlət borcundan 10 dəfə çox olub. Həmçinin əhalinin gəlirləri inflyasiyanı üç dəfədən çox üstələməklə 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,6 dəfə çoxalıb, işsizlik səviyyəsi 10,6 faizdən 4,9 faizədək, yoxsulluq səviyyəsi 44,7 faizdən 5 faizədək azalıb. Nazir diqqətə çatdırıb ki, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən davam edən işğalı, xüsusi qayğıya və sosial müdafiəyə ehtiyacı olan 1 milyondan artıq qaçqın və məcburi köçkünün mövcudluğu işsizliyin və yoxsulluğun səviyyəsini, eləcə də ölkə iqtisadiyyatının sosial yükünü artırmaqla bərabər, həm də iqtisadi artımı yavaşıdır.

Nazir bildirib ki, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, dinamik iqtisadi inkişaf, yeni texnika və texnologiyaların həyatın hər bir sahəsində geniş tətbiqi, yeni istehsal üsullarının meydana gəlməsi ölkənin əmək bazarında yüksək təhsil səviyyəsinə malik olan işçi qüvvəsinə tələbatı artırır və bu, ölkənin iqtisadi artımı üçün əsas şərtlərdən birinə çevrilir. İşçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması və rəqabət qabiliyyətinin artırılması, kadr hazırlığı sisteminin təkmilləşdirilməsi, əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun təmin edilməsi və bütövlükdə insan kapitalının yüksək inkişaf səviyyəsinə nail olunması ölkədə dövlət məşğulluq siyasətinin əsas prioritet istiqamətidir. Bildirib ki, bu gün qeyd olunan məqsədlərə nail olmaq üçün beynəlxalq və milli əmək bazarının tələblərinə cavab verən kompetensiyalar əsasında peşə və kvalifikasiya standartlarının tətbiqi işləri görülür. Bu baxımdan, işçi bacarıqlarının formalaşdırılması, inkişafı və istifadəsi üçün əsas prinsipləri müəyyən edən “G20 Bacarıqlar Strategiyası” (“G20 Skills Strategy”) Azərbaycan üçün də olduqca aktualdır.

Azərbaycanda işsiz və işaxtaran vətəndaşların, xüsusən həssas əhali qruplarının əmək bazarına daha tez inteqrasiyası məqsədilə məşğulluq orqanlarının institusional və kadr potensialının daim təkmilləşdirildiyini qeyd edən S.Müslümov işsiz vətəndaşların işlə təminatı, peşə hazırlığı və peşəyönümü, əmək yarmarkaları, habelə gənclər üçün ixtisaslaşdırılmış yarmarkalar, əmək birjaları barədə məlumat verib. O, əlilliyi olan şəxslərin məşğulluğunun dəstəklənməsi işlərindən bəhs edərək, sağlamlıq imkanları məhdud gənclər üçün xüsusi təlim proqramlarının və peşə yönümü testlərinin tətbiqi, peşə reabilitasiya mərkəzlərinin yaradılması və s. tədbirləri diqqətə çatdırıb. Nazir, həmçinin sosial tərəfdaşlıq prinsipləri əsasında kompleks yanaşmaların, innovasiya elementlərinin tətbiqi ilə daha yüksək keyfiyyətli məşğulluq xidmətlərinin göstərilməsi üçün aparılan işlərdən bəhs edib. Qeyd edib ki, hər bir ölkə üçün gənclər siyasətinə yönəldilmiş vəsait cəmiyyətin mövcud və gələcək inkişafına qoyulmuş investisiyalar deməkdir. Beynəlxalq təcrübə göstərir ki, bu gün dünya ölkələrində daha çox aktual olan gənclərin məşğulluq probleminin həlli üçün siyasi iradə və müasir yanaşmaların mövcudluğu əsas şərtlərdən biridir.

S.Müslümov vurğulayıb ki, Azərbaycan Avropa və MDB ölkələri sırasında demoqrafik baxımdan cavan yaş strukturuna malik az sayda ölkələrdən biridir. Hazırda Azərbaycan əhalisinin 28,5 faizi 15-29 yaşlı gənclərdir. 2014-cü ilin sonuna demoqrafik yük əmsalı 1990-cı ilə nisbətən 1,7 dəfə azalaraq 40 nəfər təşkil edib. Mövcud demoqrafik vəziyyət və bu sahədə perspektiv qiymətləndirmələr ölkədə iqtisadi artım, demoqrafiya, təhsil və məşğulluq siyasətlərinin qarşılıqlı əlaqələndirilməsinin gücləndirilməsini zəruri edir. Nazir deyib: “BƏT ilə birgə gerçəkləşdirilən və bir qrup gəncin əməkhaqqının yarısının 6 ay ərzində BƏT-in vəsaiti hesabına maliyyələşdirilməsini nəzərdə tutan layihə nəticəsində bu gənclərin 90 faizi sonradan işəgötürən tərəfindən öz iş yerində saxlanılıb. Biz belə eksperimentlərin artırılmasını və G20 ölkələrinin bu tipli layihələri dəstəkləməsini arzulayırıq”.

Azərbaycanda 15-29 yaşda gənclər arasında işsizlik səviyyəsinin 9,7 faiz olmaqla digər ölkələrlə müqayisədə xeyli aşağı olduğunu diqqətə çatdıran S.Müslümov bildirib ki, məhz bu səbəbdən Azərbaycan gənclərin məşğulluq problemlərinin həlli üzrə dünyada 10 lider ölkə sırasına daxil edilib. Bildirib ki, Azərbaycan hökumətinin əsas səyləri dayanıqlı iqtisadi artıma və əhalinin sosial rifahının yüksəldilməsinə, xüsusilə əlilliyi olan şəxslərin, ahılların, qaçqın və məcburi köçkünlərin, sosial müdafiəyə xüsusi ehtiyacı olan digər şəxslərin potensial imkanlarından tam istifadəsi üçün əmək bazarına açıq, inkluziv və bərabərhüquqlu çıxış imkanlarının yaradılmasına yönəldilib. Ölkədə məşğulluq siyasəti daim təkmilləşdirilir. Hazırda mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, iqtisadi prioritetlərə uyğun olaraq uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması üçün yeni Məşğulluq Konsepsiyası hazırlanır.

Nazir bazar iqtisadiyyatının tələblərinə uyğun formalaşmış bilik və bacarıqlara malik olan işçi qüvvəsi vasitəsilə ölkədə dayanıqlı, tarazlaşdırılmış və inkluziv iqtisadiyyatın artımına Azərbaycanın inkişaf konsepsiyasına uyğun olaraq müasir yanaşmalar və innovativ metodlardan istifadə edilərək nail olunacağını vurğulayıb. S.Müslümov deyib: “Bu toplantıda qəbul ediləcək G20 Əmək və Məşğulluq Nazirlərinin Bəyannaməsində əksini tapan siyasi məqsədlər və əldə olunmuş G20 ölkələrinin təcrübəsi gələcək fəaliyyətimizdə geniş istifadə olunacaq”.

Azərbaycanda dayanıqlı inkişafın təmin olunması şəraitində əhalinin məşğulluq imkanlarının artırılması, xüsusən gənclərin məşğulluğu, işsizliyin kəskin şəkildə azaldılması, daha inkluziv əmək bazarının formalaşdırılması, əmək potensialının keyfiyyətcə yüksəldilməsi yönündə aparılan işlər və əldə olunan uğurlar barədə məlumatlar tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Sentyabrın 4-də işini davam etdirəcək toplantıda G20 Əmək və Məşğulluq Nazirlərinin Ankara Bəyannaməsi qəbul olunacaq.

***Sabir ŞAHTAXTI,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Ankara*

# İkili standartlar cilovu

## İkili standartlar və rəngli inqilablar

İkili standartların tətbiqinin əsas sahələrindən biri də dünyanın müxtəlif bölgələrində həyata keçirilən rəngli inqilablar və ölkələrin sərhədlərinin dəyişdirilməsi, yaxud bunlara cəhdlərdir. Təbii ki, ikili standartların müəllifləri bunu açıq etiraf etmək istəmirlər.

Amerikalı jurnalist və publisist Ueyn Madsen yazır: “Con Kerri bildirir ki, ABŞ bütün dünya boyu çoxsaylı “rəngli inqilablar”a dəstək verməmişdir. Görünür, cənab dövlət katibinə 64 rəngli karandaşdan ibarət - Vaşinqtonun hazırladığı hər inqilab üzrə bir karandaşdan ibarət bağlama göndərmək lazımdır”. Madsen göstərir ki, 2009-2013-cü illərdə Senatın Beynəlxalq əlaqələr komitəsinin sədri olmuş ABŞ-ın indiki dövlət katibi “rəngli” hərəkatlara köməklə əlaqədar Amerika siyasəti barədə başqalarından yaxşı bilməlidir. Madsen ABŞ-ın iştirakı və dəstəyi ilə dövlət çevrilişlərinin baş verdiyi ölkələrin siyahısını gətirir: Gürcüstanda “qızılgüllər inqilabı”, Ukraynada “narıncı inqilab”, Livanda “sidr inqilabı”, Fələstində “zeytun inqilabı”, Qırğızıstanda “zanbaqlar inqilabı”, Yuqoslaviyada, Küveytdə, Liviyada, Birmada, Tibetdə və digər ölkələrdə dövlət çevrilişləri... Həmçinin Moldovada, Monqolustanda, Özbəkistanda, Ekvadorda, Boliviyada və Belarusda inqilablar planlaşdırılmış, lakin baş tutmamışdır.

2014-cü il mayın 22-də ABŞ dövlət katibi Con Kerri Tailandda baş vermiş hərbi çevrilişlə əlaqədar məyus olduğunu bildirmiş və ABŞ-ın Tailandla münasibətlərinə, xüsusən də yaxınlarda dövlət çevrilişini həyata keçirmiş tay ordusu ilə əməkdaşlığa yenidən baxılacağını bəyan etmişdir.

Amerika qanunvericiliyi dövlət çevrilişinin baş verdiyi ölkələrə hərbi yardımı qadağan edir. Kerri demişdir: “Bu hərbi çevrilişə heç bir bəraət ola bilməz”. Halbuki ABŞ, məlum olduğu kimi, digər ölkələrdə dövlət çevrilişlərini dəstəkləmiş və indi onlara hər cür kömək, o cümlədən hərbi kömək göstərməkdə davam edir. Bu, ABŞ Dövlət Departamentinin növbəti ikiüzlülüyünə parlaq nümunədir.

İkili standartlar keçirilən seçkilərin qiymətləndirilməsində daha aydın şəkildə təzahür edir.

Əgər bizim günlərdə ABŞ özünə sərf etməyən “diktator” elan edilmiş hökmdarlara qarşı fəal şəkildə rəngli inqilablar təşkil edirsə, əksinə, bir qədər əvvəl (çox halda elə indi də) sağ təmayüllü əsl diktatorları, xüsusən də Latın Amerikasında fəal şəkildə dəstəkləmişlər. Amerikalılar üçün heç nəyin - nə amansızlığın, nə də rejimin cinayətkar olmasının əhəmiyyəti var idi - başlıcası o idi ki, amerikapərəst diktatorlar ABŞ-ın iqtisadi maraqlarını təmin etsinlər.

Qərb ölkələri, xüsusən də ABŞ öz ərazilərində qanunun icazə verdiyi çərçivələrdən kənara çıxan etiraz aksiyalarını amansızlıqla yatırırlar. Lakin xaricdə bu cür aksiyalardan söhbət gedəndə, bu aksiyalar növbəti qərbpərəst rəngli inqilaba çevrilə biləndə Qərb və ABŞ heç bir əxlaqsızlığa və etirazçılar tərəfindən zorakılığın təzahürlərinə baxmadan belə aksiyaları dəstəkləyirlər. Ona görə müntəzəm olaraq belə vəziyyət yaranır ki, Qərb KİV-i növbəti rəngli etiraz xadimlərindən “dinc etirazçı” və ya “dinc fəal” obrazı yaradırlar, öz evlərində isə hakimiyyət orqanları belə fəalları cinayətkarlar kimi tez-tələsik cəzalandırır.

Məsələn, bu il martın 18-də Almaniyanın Frankfurt-Mayn şəhərində Avropa Mərkəzi Bankının yeni mənzil-qərargahının açılışı ilə əlaqədar keçirilmş etirazların gedişində 70 nəfərdən çox polis işçisi yaralanmışdır. Mindən çox hüquq pozuntusu qeydə alınmış, təxminən 350 nəfər saxlanılmışdır, həmçinin polislər tərəfindən su şırnaqlarından və gözyaşardıcı qumbaralardan istifadə edilməsi nəticəsində nümayişçilər arasında da zərərçəkənlər olmuşdur. Lakin bu halda nədənsə heç kim Almaniya hakimiyyət orqanlarının hərəkətlərini pisləmir.

## Hakimiyyətdə vərəsəlik və seçkilər

İkili standartların müddəaları hakimiyyətdə vərəsəliyin və ya hakimiyyətdə uzun müddətdə qalmağın yolverilməzliyi barədə “demokratiya” süitası çalmağı öz əlaltıları olan QHT-lərə və “beşinci kolon” təmsilçilərinə öyrətməkdədir.

*(Əvvəli qəzetin 3 sentyabr nömrəsində)*

Lakin Qərb ölkələrinə və onların yaxın tarixinə nəzər salanda, biz onlarda çoxlu siyasi “uzunömürlülər”in olduğunu görərik. Məsələn, Almaniyanın indiki kanslerі Angela Merkel 10 ilə yaxındır ki, bu vəzifəni tutur; britaniyalı Baş nazir Toni Bler bu vəzifədə 10 ildən çox olub; Jak Şirak 12 il Fransanın Prezidenti olub; Silvio Berluskoni isə dörd dəfə İtaliyanın Baş naziri postuna yiyələnib

Biz artıq öyrəncəliyik ki, ABŞ-da bir çox digər vəzifələr kimi, prezident kürsüsü də irsən keçir (prezidentlər: ata Corc Buş, oğul Corc Buş). ABŞ-ın dövlət katibi Con Kerrinin bütöv adı Con Forbs Kerridir, o, məşhur milyardçılar ailəsinin törəməsidir və ABŞ-ın dörd prezidenti ilə, habelə Avropanın zadəgan kral ailələri ilə qohumluq əlaqələrinə malikdir. Kennedilər qəbiləsini (prezident və bir sıra senatorlar), ər-arvad Klintonları da (prezident və dövlət katibi) yada salmaq pis olmaz.

Hər halda etiraf etmək lazımdır ki, formal olaraq səsvermə üçün elektron maşınlarda edilmiş fırıldaqlarla bağlı axırıncı qalmaqallar nəzərə alınmaqla, ABŞ-da yalandoğru seçkilər keçirilir. Doğrudur, son 150 ildə, faktiki olaraq, əksər məsələlərdə mövqeləri üst-üstə düşən iki partiyadan (Respublikaçılar və Demokratlar) birinin nümayəndəsini seçmək lazım gəlir.

Böyük Britaniyada isə, demə, indiyədək Lordlar Palatası mövcuddur - burada yerlər rəsmi olaraq irsən ötürülür. Həm də Lordlar Palatası məzəli atavizmin ifadəsi deyildir: palata qanun yaradıcılığı və bəzi nazirlərin vəzifəyə təsdiq edilməsi prosesində kifayət qədər fəal şəkildə iştirak edir.

Nəhayət, Britaniyada və bir çox Qərb ölkələrində (o cümlədən Birləşmiş Krallıq ölkələrində) formal dövlət başçısı bəzən onillərlə hakimiyyət başında olan monarxdır. Həm də bu zaman konstitusiyalı monarxların rejimi monarxların heç bir hakimiyyətinin olmamasını güman etmir - sadəcə olaraq, bu hakimiyyət kifayət qədər məhduddur və çox vaxt formal və nümayəndəlik funksiyalarına qədər məhdudlaşdırılmışdır (hərçənd Britaniya Kraliçasının müharibə elan etmək və ya ittifaq bağlamaq, hakimləri və nazirləri təyin etmək kimi krala məxsus müstəsna hüquqları vardır). Buna baxmayaraq, Qərb monarxları hissolunacaq dərəcədə cəmiyyətə və siyasətə təsir etmək imkanlarını qoruyub saxlayırlar. Buna misal olaraq Kanadada baş vermiş parlament böhranını göstərmək olar. Kanadanın Britaniya Kraliçası tərəfindən təyin olunan general-qubernatoru Mişel Jan fəaliyyətdə olan baş nazirin təqdimatına əsasən, özünün fərmanı ilə 2008-ci il dekabrın 4-də ölkə parlamentinin fəaliyyətini 2 aylığa dayandırmış və bununla da müxalifətin fəaliyyətdə olan baş nazir və Mühafizəkarlar Partiyasının lideri Stiven Harperə etimadsızlıq göstərmək planlarını pozmuşdu.

Kral saraylarının saxlanmasına xeyli büdcə vəsaiti xərclənir. Lakin Britaniya ictimaiyyəti heç də öz kral və kraliçalarını devirmək və ya dövlət maliyyələşdirməsindən məhrum edilməsini tələb etməyə deyil, onlara hörmət və ehtiram göstərməyə alışdırılmışdır.

Qərb KİV-i və siyasətçiləri müntəzəm olaraq Azərbaycanda seçkiləri tənqid edir, gah onlarda həddən artıq pozuntu “tapır”, gah da “real seçimin” olmamasına görə qınayırlar. Lakin istəsən, bu şeylərə görə Qərb ölkələrinin özünü asanlıqla qınamaq olar: onlar çox vaxt siyasi seçimin geniş olmaması, seçki prosesinin səliqəli və şəffaf keçməməsi ilə fərqlənirlər.

Nümunə kimi Şotlandiyanın müstəqilliyi barədə 2014-cü il sentyabrın 18-də keçirilmiş referendumdakı çoxsaylı pozuntuları misal gətirmək olar (Britaniyanın hakimiyyət dairələri referendumun keçirilməsinə icazə vermişdilər, belə ki, onlar əksər şotlandların müstəqilliyə səs verməyəcəklərinə əmin idilər).

Qərb ölkələrində seçki sisteminin özü çox vaxt şübhəli təsir bağışlayır. Məsələn, ABŞ-da prezident birbaşa olmayan (ikipilləli) seçkilər vasitəsilə seçilir. Hərçənd vətəndaşlar prezidentliyə namizədlərə səs versələr də, onların əvəzinə son seçimi seçkiçilər edirlər - hər bir ştatdan müəyyən sayda seçkiçilər, bir qayda olaraq, həmin ştatda daha çox səs toplamış namizədə birlikdə səs verirlər. Bu sistem artıq 4 dəfə elə bir vəziyyətə gətirib çıxarıb ki, bu zaman əhalinin əksəriyyətinin səs verdiyi namizəd deyil, seçkiçilərin daha çox səs verdiyi namizəd prezident adını qazanmışdır - sonuncu dəfə belə bir hal 2000-ci ildə, ata Corc Buşun böyük oğlu Corc Buş prezident adını qazanarkən olmuşdur; ovaxtkı seçkilər Corcun qardaşı Ceb Buşun qubernator olduğu Floridada səslərin yenidən sayılması qalmaqalı ilə əlamətdar olmuşdu.

## İnsan haqlarına ikili baxış

Qərb ölkələri tərəfindən daim Azərbaycanın və qeyri-Qərb ölkələrinin ünvanına insan hüquqlarının pozulmasına dair ittihamlar yağdırılır. Bu, həm qərbli obıvatelin qərbli olmayan “barbarlar”dan fərqli və onlardan üstün olduğunu hiss etməsi üçün, həm də ipə-sapa yatmayan ölkələrdə rəngli inqilablar üçün zəmin yaratmağa xidmət edir. Çoxsaylı təşkilatlar Qərbə lazım olan dərəcədə KİV-də müxtəlif ölkələrdə insan hüquqlarına dair vəziyyəti işıqlandırmaq üzrə çalışırlar - məruzələr hazırlanır, “sənədli” filmlər çəkilir, “azadlıq” reytinqləri və digər subyektiv göstəricilər elan edilir.

Lakin Qərbin özünə diqqətlə fikir verilsə, onlarda da çoxsaylı insan hüquqlarının pozulmasına rast gəlmək olar ki, Qərb onlar barədə digər ölkələri ittiham edir. Bu mənada xüsusilə özünün polis amansızlığı ilə, həbsxana sənayesi və işgəncələri ilə, habelə vətəndaşların və internet istifadəçilərinin izlənilməsi ilə ABŞ fərqlənir.

Son illərdə Rusiya və Çin insan hüquqları haqqında Qərbdə dərc olunan materiallara bu mövzuda özlərinin məruzələri ilə - Qərb ölkələrində insan hüquqları sahəsində vəziyyətin araşdırılmasına həsr olunmuş tədqiqatları ilə cavab verməyə başlamışlar. Bu da həmin məruzələrdən bir neçəsi:

ABŞ-da insan hüquqları haqqında məruzə - 1998-ci ildən etibarən ÇXR Dövlət Şurasının mətbuat dəftərxanası tərəfindən hər il dərc edilir;

İnsan hüquqları haqqında Rusiya Federasiyası XİN-in məruzələri - 2011-ci ildən etibarən RF Xarici İşlər Nazirliyi tərəfindən ABŞ-da, Kanadada və bir sıra Avropa ölkələrində insan hüquqlarına dair vəziyyət barədə dərc olunur. Məruzələrin tərtib edilməsi zamanı XİN Qərb mənbələrindən, o cümlədən Qərbin hüquq müdafiə təşkilatlarının məlumatlarından geniş istifadə edir.

2014-cü ilin dekabrında MKİ-nin həbsxanalarında işgəncələr haqqında hamını şoka salan (90%-i məxfi olan) məruzə yayılmışdır. Buna cavab olaraq ABŞ Senatında respublikaçıların lideri Mitç MakKonnel və kəşfiyyat komitəsinin üzvü senator Seksbi Çembliss bəyan etmişlər ki, zəruri məlumatları əldə etmək üçün MKİ-nin istifadə etdiyi metodlar içərisində Üsəma bin Ladenin də olduğu təhlükəli terrorçuları tapmaqda kömək etmişdir. Daha iki respublikaçı senator Marko Rubio və Cim Riç bildirmişlər ki, MKİ-nin bu sahədəki fəaliyyəti barədə məruzənin dərc edilməsi Amerika vətəndaşlarının həyatını təhlükə altına ala və ABŞ-ın digər ölkələrlə münasibətlərini korlaya bilər. Keçmiş vitse-prezident Dik Çeyni MKİ-nin metodları haqqında Senatın məruzəsini “başdan-başa cəfəngiyat” adlandıraraq demişdir ki, məhbuslara qarşı su ilə işgəncələr tətbiq etmək, o cümlədən boğulma həddinə çatdırma haqlı işdir və lazımi nəticələr vermişdir.

Və bütün bunlar onun fonunda baş verir ki, ABŞ başqa ölkələri hətta zor işlətməklə bağlı olmayan hallarda da insan hüquqlarını pozmaqda fəal surətdə ittiham edir. Həmçinin amerikalılar Amerikanın təşkil etdiyi rəngli inqilabların həyata keçirildiyi ölkələrin hakimiyyət orqanları tərəfindən zor işlədilməsinə qarşı çıxış edirlər.

## İkili standartlar qarşılıqlı faydalı əməkdaşlığa qarşıdır

Ölkə Prezidenti cənab İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, Azərbaycan dünyaya açıq bir ölkə olmaqla, xarici əlaqələrin qurulmasında çox maraqlıdır. Bu barədə akademik Ramiz Mehdiyevin kitabında da çağırışlar öz əksini tapmışdır: “Özünütəcrid siyasəti bizə yaddır. Azərbaycan heç vaxt özünü dünyadan “Çin səddi” ilə ayırmağa çalışmayıb. Biz ikitərəfli əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu, bizim üçün prioritetdir. Sivilizasiyalı dövlət olan Azərbaycan bütün dövlətlərlə, Avropa Şurası ilə, digər beynəlxalq təşkilatlarla ikitərəfli münasibətləri inkişaf etdirmək arzusundadır”.

Lakin möhtərəm Prezidentimizin bu sahədə də siyasəti yalnız qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əməl olunması, ikili standartlara yol verilməməsi üzərində qurulmuşdur. Bu baxımdan Prezident İlham Əliyevin sözlərini xatırlatmaq yerinə düşərdi: “Bildiyiniz kimi, Azərbaycan Avropa İttifaqı ilə Assosiasiya Sazişinə qoşulmamışdır. Ona görə ki, bu saziş bizim maraqlarımıza uyğun gəlmir. Orada, sadəcə olaraq, bir mexanizm təklif olunurdu ki, bu, ikitərəfli əməkdaşlıqdan çox birtərəfli əməkdaşlığa bənzəyirdi və elə bil ki, o saziş bir göstəriş vərəqəsi idi. Bizə isə bu, əlbəttə ki, yaramır. Çünki Azərbaycan bütün ölkələrlə, bütün beynəlxalq təşkilatlarla bərabərhüquqlu münasibətlər qurur və biz fəaliyyətimizi bu prinsip üzərində davam etdiririk”.

Son vaxtlar özünün antiazərbaycan siyasətini daha da gücləndirən və ikili standartlar əsasında “bəstələnmiş” bəyanatlar qəbul edən Almaniya Bundestaqı kimi qurumlar barədə ən səlis cavab da ölkə Prezidenti tərəfindən verilmişdir: “Almaniya Bundestaqı kimdir ki, antiazərbaycan qətnaməsi qəbul etsin?! Getsin öz işi ilə məşğul olsun. Bəsdirin başqa ölkələrin daxili işlərinə müdaxilə etdiniz, biz buna imkan verməyərik... Bundestaqdan sonra... Avropa Şurası Parlament Assambleyası antiazərbaycan qətnaməsi qəbul edir. Yəni bu nə deməkdir, bu nə düşmənçilikdir və siz kiminlə düşmənçilik edirsiniz - Azərbaycanla?! Biz düşmənçilik edə bilərik, kim bundan zərər çəkər, onu onlar yaxşı düşünsünlər.

...O qətnamələr bizim üçün kağız parçasıdır. Ona görə heç kim onları heç vaxt icra etməyəcək. Bunu bilsinlər, Azərbaycan xalqı bilsin və o çirkin yazıları tərtib edənlər də bilsinlər. Azərbaycanla diktat dili ilə danışmaq olmaz, Azərbaycanla dost, tərəfdaş olmaq olar. Biz buna hazırıq və gələcəkdə bax bu istiqamətdə gedəcəyik”.

Taleyin hökmü ilə bu il avqustun əvvəlində Almaniyada jurnalistlərlə bağlı hətta dövlətə xəyanətdə ittiham edilə bilən böyük bir qalmaqal baş vermişdir. Tanınmış “Netzpolitik” xəbər saytının müəlliflərini ömürlük həbs cəzası təhlükəsi gözləyir. Almaniya əks-kəşfiyyatının işi barədə gizli məlumatların da yer aldığı məqaləni yaymağa görə onları dövlətə xəyanətdə ittiham edirlər. O cümlədən portal Twitter, Facebook, You Tube kimi sosial şəbəkələrdə alman istifadəçiləri izləyəcək yeni orqanın yaradılmasından xəbər verir. Lakin bu halda dünya KİV-i Qərbdə hakimiyyət institutunun söz azadlığı ilə münaqişəsi haqqında susmağa üstünlük verir.

## İkili standartlar sülhə və əmin-amanlığa qarşı

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Qərbin ikili standartlarının “bəhrə”sini biz hamımız yaxşı hiss edirik. Akademik Ramiz Mehdiyev bir daha buna diqqət çəkir: “ABŞ 1992-ci ildən bəri Ermənistana iki milyard dollardan artıq, Dağlıq Qarabağ separatçılarına isə 1998-ci ildən bəri 83 milyon dollardan çox maliyyə yardımı göstərib. Göründüyü kimi, Amerika əsla gizlətmir ki, o, Ermənistanın yürütdüyü, bu uzanan münaqişənin dondurulmasına yönəlmiş fəaliyyət xəttini dəstəkləyir”.

* * *

Məqaləni problemlərimizin həllini haqlı olaraq dövlətçiliyimizin gücləndirilməsində görən filosof-alimin aşağıdakı fikirləri ilə yekunlaşdırmaq istərdim: “Dövlətin funksiyasını heç vaxt zəiflətmək olmaz, hərçənd müasir liberalizmin tərəfdarları cəmiyyətə bunu təlqin etməyə çalışırlar ki, vətəndaş cəmiyyəti təşkilatları dövlətin vəzifələrinin çoxunu öz üzərinə götürə bilərlər. Zənnimcə, onlar ciddi yanılırlar. Liberalizmin adeptləri və idealistlər nə deyirlər-desinlər, onlar öz baxışlarını əsaslandırmaq üçün nə qədər çalışsalar da, bizim güclü dövlətə və müxtəlif növ anarxistlərin “qırmızı xətti” keçmələrinə imkan verməyən güclü hakimiyyətə ehtiyacımız var.

Cəmiyyətdə sabitliyin təmin edilməsində dövlətin rolu o qədər böyükdür ki, onu heç bir ictimai təşkilat əvəz edə bilməz”.

***Vahid NOVRUZOV,***
***professor***

**1 noyabr Milli Məclisə seçkilər günüdür**

# Mərkəzi Seçki Komissiyasının Avropa İttifaqı ilə birgə layihəsi çərçivəsində seçkilərlə bağlı müraciətlərə baxılmasına həsr olunmuş seminarlara başlanılıb

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar beynəlxalq təşkilatlarla birgə müxtəlif istiqamətlər üzrə layihələr davam etməkdədir.



MSK katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, növbəti layihə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Avropa İttifaqı ilə birgə əməkdaşlığı çərçivəsində gerçəkləşdirilib. Belə ki, sentyabrın 3-də seçkilərlə bağlı müraciətlərə baxılmasına həsr olunmuş genişmiqyaslı maarifləndirmə layihəsinə start verilib. Vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin maarifləndirilməsinə hədəflənmiş tədbirdə Mərkəzi Seçki Komissiyasının üzvləri, Avropa İttifaqının rəsmiləri və MSK Katibliyinin təmsilçiləri də iştirak ediblər.

Tədbirin keçirilməsində başlıca məqsəd dairə seçki komissiyalarının ekspert qrupu üzvlərinin müraciət və şikayətlərə baxılması ilə bağlı məlumatının artırılması, praktiki vərdişlərinin gücləndirilməsi və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün onların fəaliyyətinin təkmilləşdirilməsindən ibarətdir.

Seminar zamanı beynəlxalq ekspertlər və MSK üzvləri tərəfindən vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılmasına dair müxtəlif mövzularda təqdimatlar aparılıb, əhatə olunan məsələlər əyani şəkildə hərtərəfli izah edilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd etmək lazımdır ki, irimiqyaslı maarifləndirmə layihəsi kimi sentyabrın 3-dən başlanan regional seminarlar Şirvan, Gəncə və Şəki şəhərlərində də keçirilməklə sentyabrın 11-dək davam edəcək və ölkə üzrə 125 seçki dairəsinin dairə seçki komissiyalarının bütün ekspert qruplarının üzvləri qatılacaqlar.

# Seçki fondlarının vəsaitlərinə dair hesabat və həmin vəsaitlərin istifadəsində aşkarlıq

Beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanıb keçirilməsi prosesi uğurla davam etməkdədir. Hazırda namizədlərin irəli sürülməsi və səlahiyyətli nümayəndələrin təsdiq olunması prosesi gedir. Bu mərhələdə deputatlığa namizədlər tərəfindən həyata keçirilməsi zəruri olan hərəkətlərdən biri də xüsusi seçki hesabının açılmasıdır.



Seçki qanunvericiliyinə əsasən seçki prosesində namizədlərin, qeydə alınmış namizədlərin, namizəd irəli sürmüş və ya namizədi qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının fəaliyyətinin maliyyələşdirilməsi üçün seçki fondu yaradılır. Bu məqsədlə də xüsusi seçki hesabı açılır. Həmin hesab namizədin irəli sürülməsi barədə müvafiq seçki komissiyasına bildiriş təqdim edildikdən sonra 5 gün müddətində, lakin namizədin qeydiyyatı üçün zəruri olan seçici imzalarının yığılmasına azı 24 saat qalmış açılmalıdır.

Namizədlər üçün vahid seçki fondu yaratmaq niyyətində olan siyasi partiyalar, siyasi partiyalar blokları birmandatlı seçki dairələrinin 60-dan çoxunda irəli sürülən namizədlərin siyahısını MSK-ya təqdim etdikdən sonra 5 gün müddətində vahid seçki fondunu formalaşdırmaq üçün xüsusi seçki hesabı açırlar.

Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada rəsmiləşdirilmiş sənədlər təqdim edildikdə Azərbaycan Respublikasının Beynəlxalq Bankı dərhal, lakin 3 gündən gec olmayaraq xüsusi seçki hesabı açmalıdır. Bütün pul vəsaiti xüsusi seçki hesabına manatla köçürülür.

Namizədlər, siyasi partiya, siyasi partiyalar bloku yalnız bir xüsusi seçki hesabı aça bilərlər. Xüsusi seçki hesabının vəsaitlərinə sərəncam vermək hüququ namizədin özü, onun təyin etdiyi səlahiyyətli nümayəndə və yaxud siyasi partiya və ya siyasi partiyalar bloku tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə tərəfindən həyata keçirilir.

Birmandatlı seçki dairəsi üzrə irəli sürülən namizədlərin, qeydə alınmış namizədlərin seçki fondları yalnız aşağıdakı pul vəsaiti hesabına formalaşır:

- namizədin, qeydə alınmış namizədin xüsusi vəsaiti (500 000 (beş yüz min) manatdan çox olmamaq şərtilə);
- namizədi, qeydə alınmış namizədi irəli sürmüş siyasi partiyanın, siyasi partiyalar blokunun tərkibinə daxil olan siyasi partiyaların vəsaiti (150 000 (yüz əlli min) manatdan çox olmamaq şərtilə);
- vətəndaşların və hüquqi şəxslərin könüllü ianələri (vətəndaşın köçürdüyü vəsait 3000 (üç min) manatdan, hüquqi şəxsin köçürdüyü vəsait isə 50 000 (əlli min) manatdan çox ola bilməz).

Deputatlığa namizədlərin seçki fondu məbləğinin yuxarı həddi 500 000 (beş yüz min) manatdan çox ola bilməz.

Siyasi partiyaların, siyasi partiyalar bloklarının seçki fondları isə yalnız aşağıdakı pul vəsaiti hesabına formalaşır:

- siyasi partiyaların, siyasi partiyalar bloklarının xüsusi vəsaiti (500 000 (beş yüz min) manatdan çox olmamaq şərtilə). Siyasi partiyalar blokunun bu xüsusi vəsaiti seçki blokunu yaratmış siyasi partiyaların ayırdığı vəsaitlər hesabına formalaşır;
- vətəndaşların və hüquqi şəxslərin könüllü ianələri (vətəndaşın köçürdüyü vəsait 3000 (üç min) manatdan, hüquqi şəxsin köçürdüyü vəsait isə 50 000 (əlli min) manatdan çox ola bilməz).

Nəzərə alınsa ki, deputatlığa namizədlərin seçki fondu məbləğinin yuxarı həddi qanunvericiliklə 500 000 (beş yüz min) manat miqdarında nəzərdə tutulmuşdur, onda hər bir siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondu vəsaitinin yuxarı həddi həmin məbləğin siyasi partiya, siyasi partiyalar bloku tərəfindən irəli sürülmüş və ya qeydə alınmış namizədlərinin sayına vurulması yolu ilə müəyyən edilir. Bu tələbə riayət olunması siyasi partiyaların, siyasi partiyalar bloklarının maliyyə hesabatlarında göstərilməlidir.

Göründüyü kimi, seçki fondları namizədin öz xüsusi vəsaiti, siyasi partiyaların vəsaiti və könüllü ianələr hesabına formalaşır.

Könüllü ianələr dedikdə, fiziki və hüquqi şəxslərin seçki fondlarına köçürdüyü vəsaitlər başa düşülür. Qanunvericiliklə ianələrin yuxarı həddi fiziki şəxslər üçün 3000 (üç min) manat, hüquqi şəxslər üçün isə 50000 (əlli min) manat miqdarında müəyyən edilmişdir.

Fiziki şəxslər dedikdə, yalnız 18 yaşdan yuxarı Azərbaycan Respublikasının vətəndaşları, hüquqi şəxslər dedikdə isə, dövlət hakimiyyəti orqanları və bələdiyyə qurumları; dövlət, bələdiyyə təşkilatları və idarələri; hərbi hissələr; xeyriyyə təşkilatları, dini birliklər, idarələr və təşkilatlar, eləcə də seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə nizamnamə kapitalında dövlətin və ya bələdiyyənin iştirak payı, yaxud xarici kapitalın payı 30 faizdən artıq olan hüquqi şəxslər istisna olmaqla, yalnız Azərbaycan Respublikasının hüquqi şəxsləri nəzərdə tutulur.

Fiziki şəxslərdən könüllü ianələr rabitə şöbələri və bank təşkilatları vasitəsilə ianəçinin soyadı, adı, atasının adı, doğum tarixi və yaşayış yerinin ünvanı göstərilməklə şəxsiyyət vəsiqəsi, yaxud onu əvəz edən sənədin təqdim edilməsi əsasında qəbul edilir.

Hüquqi şəxslərdən könüllü ianələri isə seçki fonduna yalnız nağdsız köçürülmə yolu ilə, müvafiq hüquqi şəxsin nizamnamə kapitalında dövlət və ya bələdiyyə kapitalının, xarici kapitalın olub-olmaması və ya payı qeyd edilməklə, onun adı, qeydiyyat tarixi, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, bank rekvizitləri göstərilməklə qəbul olunur.

Bu vəsaitlər bank təşkilatları tərəfindən ödəniş sənədi alındıqdan sonra ən geci 2 gün ərzində seçki fondlarına köçürülməlidir.

Seçki fondlarında olan vəsaitlər təyinatlı məqsəd daşıyır. Bu vəsaitlərdən yalnız aşağıdakı məqsədlər üçün istifadə edilə bilər:

- namizədlərin irəli sürülməsinin müdafiəsi üçün imzaların toplanmasına yönəlmiş təşkilati-texniki tədbirlərin maliyyə təminatı, habelə seçici imzalarının toplanması üçün müvafiq şəxslərin haqqının ödənilməsi;
- seçkiqabağı təşviqatla bağlı işlərin, habelə informasiya və məşvərət xidmətlərinin dəyərinin ödənilməsi;
- seçki kampaniyasının keçirilməsi ilə əlaqədar hüquqi şəxslərin və vətəndaşların bilavasitə yerinə yetirdikləri digər işlərin dəyərinin ödənilməsi ilə bağlı xərclər.

Seçki Məcəlləsinin tələbinə görə namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları səsvermə gününədək seçki fondlarının hesablarına köçürülmüş pul vəsaitindən istifadə edirlər. İmzaların yığılması üçün və seçkiqabağı təşviqat fəaliyyəti üçün seçki fondlarına daxil olan vəsaitdən başqa, digər pul vəsaitindən istifadə etmək qadağandır.

Vahid seçki fondu yaradan siyasi partiyanın, siyasi partiyalar blokunun birmandatlı seçki dairələrində qeydiyyatdan keçən namizədlərinin sayı 60 və ya 60-dan az olarsa, siyasi partiyanın, siyasi partiyalar blokunun xüsusi seçki hesabı bağlanır, həmin hesabın bağlanması ilə eyni vaxtda hər bir namizəd üçün xüsusi seçki hesabı açılır və vahid seçki fondunun vəsaitləri namizədlərin seçki fondları arasında proporsional qaydada bölüşdürülür.

Qanunvericiliyin tələbinə görə, namizədlər, qeydə alınmış namizədlər, namizədi qeydə alınmış siyasi partiya, siyasi partiyalar blokları müvafiq seçki komissiyasına seçki fondlarına daxil olan və xərclənən vəsaitlər barəsində maliyyə hesabatı təqdim etməlidirlər. Maliyyə hesabatı MSK tərəfindən müəyyən edilmiş formada və müəyyən növbəliklə təqdim olunmalıdır. Belə ki, birinci ilkin maliyyə hesabatı dairə seçki komissiyasına qeydiyyat üçün zəruri sənədlərlə eyni zamanda təqdim edilir. Bu hesabata hesabatda göstərilmiş tarixə 2 gün qalmışdan əvvəlki dövr üçün məlumatlar daxil edilir.

İkinci ilkin maliyyə hesabatı səsvermə gününə ən tezi 20 gün qalmış və səsvermə gününə ən geci 10 gün qalmış təqdim edilir və bu hesabata orada göstərilən tarixə 7 gün qalmışdan əvvəlki dövr üçün məlumatlar daxil edilir.

Yekun maliyyə hesabatı isə seçkilərin nəticələrinin rəsmi dərc edildiyi gündən ən geci 10 gün sonra təqdim edilir. Yekun maliyyə hesabatına seçki fonduna vəsaitlərin daxil olmasını və xərclənməsini təsdiq edən ilkin maliyyə sənədləri də əlavə edilir. Bunlara bank çıxarışları, ödəniş tapşırıqları, fiziki və hüquqi şəxslər imzalanmış müqavilələr və s. aiddir.

Əgər namizəd, qeydə alınmış namizəd öz statusunu itirərsə, maliyyə hesabatının verilməsi vəzifəsi namizəd, qeydə alınmış namizəd olmuş vətəndaşların və ya siyasi partiya, siyasi partiyaların blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin üzərinə qoyulur.

Xüsusilə vurğulamaq lazımdır ki, seçki qanunvericiliyində SEÇKİLƏR ZAMANI SEÇKİ FONDLARI VƏSAİTLƏRİNİN İSTİFADƏSİNDƏ KİFAYƏT QƏDƏR İŞLƏK AŞKARLIQ mexanizmi nəzərdə tutulmuşdur:

Əvvəla, qeyd etmək lazımdır ki, namizədlərin, qeydə alınmış namizədlərin, namizəd irəli sürmüş və namizədi qeydə alınmış siyasi partiyalar və siyasi partiyalar bloklarının seçki prosesindəki fəaliyyətinin maliyyələşdirilməsi üçün xüsusi seçki hesabının açılması və seçki fondunun formalaşdırılmasının özü elə seçkilərdə vəsaitlərin xərclənməsinin şəffaflığının təminatıdır.

İkincisi, qeydə alınmış namizədlərin, namizədi qeydə alınmış siyasi partiyaların və siyasi partiyalar bloklarının maliyyə hesabatlarının surətləri müvafiq seçki komissiyası tərəfindən onların alındığı gündən sonra 5 gün müddətində dərc edilir.

Üçüncüsü, seçki fondu haqqında aşağıdakı məlumatlar müvafiq kütləvi informasiya vasitələrində hökmən dərc edilməlidir:

- seçki fondu vəsaitinin məbləği siyasi partiya, siyasi partiyaların bloku üçün 10 min manatdan, namizəd, qeydə alınmış namizəd üçün isə 2 min 500 manatdan çox olduqda həmin vəsaitin xərclənməsinin maliyyə hesabatı barədə;
- seçki fonduna siyasi partiya, siyasi partiyaların bloku üçün 5 min manatdan, namizəd, qeydə alınmış namizəd üçün isə 1 min 250 manatdan çox məbləğdə ianə köçürən hüquqi şəxslər barəsində (bu zaman eyni hüquqi şəxs tərəfindən vəsaitin bir neçə ianə şəklində köçürülməsinin mümkünlüyü nəzərə alınmalıdır);
- seçki fonduna 250 manatdan çox məbləğdə ianə köçürən vətəndaşların sayı barədə;
- ianəçilərə qaytarılan vəsaitlər barədə, geri qaytarmanın əsası haqqında;
- seçki fonduna daxil olmuş vəsaitin ümumi həcmi və onun xərclənmiş hissəsinin ümumi məbləği barədə.

Dördüncüsü, müvafiq bank həftədə bir dəfədən az olmamaq şərti ilə, səsvermə gününə 10 gündən az müddət qaldıqda isə 3 bank günündə bir dəfədən az olmamaq şərti ilə MSK-ya seçki fondlarına daxil olan və xərclənən vəsaitlər barədə komissiyanın müəyyənləşdirdiyi formada məlumatlar verir.

Beşincisi, müvafiq olaraq dairə seçki komissiyası və ya MSK səsvermə gününədək iki həftədə bir dəfədən az olmayaraq müntəzəm surətdə seçki fondlarına vəsaitlərin daxil olması və xərclənməsi barədə məlumatları dərc edilmək üçün kütləvi informasiya vasitələrinə təqdim edir.

Altıncısı, Seçki Məcəlləsinin 77.2-ci və 77.3-cü maddələrində göstərilən dövri nəşrlər müvafiq seçki komissiyaları tərəfindən onlara verilmiş seçki fondları vəsaitlərinin daxil olması və xərclənməsi haqqında məlumatları dərc etməyə borcludur.

Yeddincisi, müvafiq seçki komissiyası qeydə alınmış namizədləri, siyasi partiyaları, siyasi partiyaların bloklarını onların rəsmi sorğusu əsasında öz seçki fondlarına vəsaitlərin daxil olması və xərclənməsi barədə müvafiq bankın məlumatları ilə tanış edir.

Nəhayət, seçki fondlarının vəsaitlərindən istifadə olunmasında aşkarlığın təmin olunmasının vasitələrindən biri də MSK-da və dairə seçki komissiyalarında nəzarət-təftiş xidmətlərinin yaradılmasıdır. Nəzarət-təftiş xidmətləri seçki fondları vəsaitinin düzgün qeydə alınmasına və istifadəsinə, pul vəsaitinin daxilolma mənbələrinə nəzarəti təmin etmək məqsədi ilə yaradılır. Onlar seçki fondlarına vəsaitin daxil olmasına, bu vəsaitin uçotuna və təyinatı üzrə xərclənməsinə nəzarət etmək hüququna malikdirlər.

İnamla demək olar ki, Azərbaycan Respublikasının qanunverici orqanı olan Milli Məclisə 2015-ci il noyabrın 1-də keçiriləcək seçkilər MSK-nın indiyədək həyata keçirdiyi və bundan sonra da keçirilməsi nəzərdə tutulan həm maarifləndirmə, həm təşkilati-texniki xarakterli tədbirlər, eləcə də beynəlxalq təşkilatlarla apardığı işlər sayəsində beynəlxalq standartlara uyğun olaraq keçiriləcək və ölkəmizin seçkilər tarixində özünəməxsus yer tutacaqdır.

***Bəxşeyiş ƏSGƏROV,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü***

# Azərbaycanın və İranın neft mütəxəssisləri bu dəfə Bakıda görüşüblər

İran İslam Respublikasının Xəzər Kəşfiyyat və Hasilat Şirkətinin (KEPCO) geoloji-kəşfiyyat üzrə direktoru Yusif Etemadinin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda səfərdə olub. Səfər çərçivəsində iranlı mütəxəssislər SOCAR-ın Geofizika və Geologiya İdarəsində, "Neftqazelmitədqiqatlayihə" İnstitutunda və "Azneft" İstehsalat Birliyində azərbaycanlı həmkarları ilə görüşüblər.

Səfərin yekunlarını müzakirə etmək məqsədilə KEPCO-nun geologiya, geofizika, geodeziya, qazma və hasilat üzrə aparıcı mütəxəssislərinin SOCAR-ın baş ofisində şirkətin birinci vitse-prezidenti akademik Xoşbəxt Yusifzadə ilə görüşü olub. Xoşbəxt Yusifzadə qonaqları salamlayaraq ölkələrimiz arasında neft-qaz sənayesində əməkdaşlığın çoxillik tarixə malik olduğunu xatırladıb. Qeyd edib ki, uzun fasilədən sonra neft-qaz yataqlarının axtarışı və işlənməsi sahəsində əməkdaşlıq imkanı yaranıb və bu imkandan yüksək səviyyədə istifadə olunmalıdır.

Qonaqlar Azərbaycana səfərdən aldıqları təəssüratları ifadə edib, səmimi qarşılandıqları üçün SOCAR rəhbərliyinə minnətdarlıq bildiriblər. Y.Etemadi yüksək elmi potensiala və kadr resurslarına malik SOCAR-ın idarə və müəssisələrində keçirilən görüşlər zamanı Azərbaycanın neft-qaz sənayesində yeni texnologiyaların tətbiq edildiyinin şahidi olduqlarını söyləyib. Bildirib ki, səfər çərçivəsində Xəzər dənizində, eləcə də qurudakı neft-qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi sahəsində zəngin təcrübəyə malik Azərbaycan neftçiləri ilə geniş fikir mübadilələri aparıb, istifadə edilən texniki-texnoloji proseslərlə tanış olub, birgə əməkdaşlıq imkanlarını nəzərdən keçiriblər. Qonşu ölkənin mütəxəssisləri Azərbaycanda geodeziya və hidroqrafiya mütəxəssislərinin, geofiziklərin, qazmaçıların gördükləri işlərə xüsusi maraq göstərdiklərini qeyd edib, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayıblar. Palçıq vulkanlarının təzahürləri və quyuların qazılmasına təsiri, dərin sularda qaz hidratlarının öyrənilməsi, onların ehtiyatlarının hesablanması, neft-qaz sənayesində tətbiq olunan müasir kompüter proqramlarının birgə mənimsənilməsi, regional seysmik məlumatların birgə araşdırılması və digər məsələlər Azərbaycan və İran neftçiləri arasında əməkdaşlığın perspektiv istiqamətləri kimi müəyyən edilib.

Akademik X.Yusifzadə ölkələrimiz arasında enerji sektorunda əlaqələrin dərinləşdirilməsi üçün böyük perspektivlərin olduğunu söyləyib, neft-qaz sənayesində əməkdaşlığın iki ölkənin iqtisadi inkişafına daha böyük töhfələr verəcəyinə əminliyini bildirib. Görüşdə səslənmiş qarşılıqlı təkliflər ətrafında geniş fikir mübadiləsi aparılıb. Qonaqlara SOCAR-ın xatirə hədiyyələri verilib.

Xatırladaq ki, 2014-cü ilin avqustunda X.Yusifzadənin rəhbərlik etdiyi mütəxəssislər qrupu İranda səfərdə olarkən KEPCO ilə SOCAR arasında Anlaşma Memorandumu imzalanmışdı. Memoranduma əsasən neft-qaz sənayesində əməkdaşlığın genişləndirilməsi məqsədilə iki ölkənin neft mütəxəssislərinin vaxtaşırı görüşlərinin keçirilməsi, təcrübə mübadiləsi aparılması zəruri hesab edilmişdi.

***"Azərbaycan"***

# "2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası" hazırlanıb

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanmış "2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası" layihəsi ölkəmizdə turizm sənayesinin mövcud vəziyyəti, inkişaf potensialı, turizmin inkişafında hökumətin rolu, maraqlı tərəflər arasında potensial əməkdaşlıq formaları, bu əməkdaşlıqların uğurla qurulması metodları və bir sıra digər mühüm elementlər haqqında məlumat və tövsiyələri əks etdirən sənəddir.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Azərbaycanı cəlbedici və uğurlu turizm məkanına çevirmək üçün dövlətin turizm siyasətinin dörd əsas strateji prinsip üzərində qurulmasını tövsiyə edən strategiya sənayenin inkişafı üçün əlverişli iqtisadi mühitin yaradılması, turizm məhsulunun müxtəlifliyi, sənaye standartlarının təkmilləşdirilməsi və ictimai marağın qorunması şərti ilə sənayenin inkişafı üçün zəruri stimullaşdırma, planlaşdırma, koordinasiya, araşdırma və statistik köməyin təmin edilməsinə dair müxtəlif təkliflər təqdim edir.

Bununla yanaşı, sənəd institusional strukturun təkmilləşdirilməsi, infrastruktur inkişafının gücləndirilməsi, turizm təcrübəsinin müxtəlifliyi və marketinq və kommunikasiya sistemində peşəkarlığın artırılması olmaqla 4 əsas inkişaf istiqaməti haqqında geniş məlumat və dövlətin ölkədə turizmin daha əsaslı inkişafı üçün bu sahələrdə hansı məqsədlərə nail olmağa çalışmalı olduğu haqqında müvafiq tövsiyələr verir.

Xatırladırıq ki, "2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası" təsdiq edilməsi məqsədilə aidiyyəti quruma göndərilib və hazırda razılaşdırılma mərhələsindədir.

# *Azərbaycanın Dövlət Sərhəd Xidməti:* "Ermənistan mətbuatında yayılan məlumat tamamilə yalandır və təxribat xarakteri daşıyır"

Sentyabrın 3-də Ermənistanın bəzi kütləvi informasiya vasitələrində, o cümlədən *www.razm.info* saytında guya Azərbaycanın Dövlət Sərhəd Xidmətinin (DSX) Füzuli rayonunda yerləşən hərbi hissəsinin hərbi qulluqçusu 1991-ci il təvəllüdlü Orxan Yaqubovun öldürüldüyü, Dövlət Sərhəd Xidməti tərəfindən isə hərbi qulluqçunun valideynlərinə onun intihar etməsi barədə məlumat verildiyi, lakin qohumlarının onun xidmət yoldaşları tərəfindən qətlə yetirildiyini iddia etdikləri barədə məlumat yayılıb.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, bu məlumat tamamilə yalandır və təxribat xarakteri daşıyır. Sərhəd Qoşunlarında Orxan Yaqubov adlı hərbi qulluqçu xidmət etmir və ümumiyyətlə, belə bir hadisə baş verməyib.

***AZƏRTAC***

# Yurddan uzaq yurd yerləri

## *Qarabağdan Qaradağa köçənlər bir gün geri dönəcəklərinə əmindirlər*

Şamaxı istiqamətində gedib-gələn hər kəs birdən-birə məcburi köçkünlərin yaşadığı bu binaları görəndə özünü sanki qeyri-adi bir aləmlə qarşılaşmış kimi hiss edir. Yaraşıqlı binalar, yaşıl həyətlər, səliqəli, rahat yollar hamını özünə cəlb edir. Artıq neçə ildir adət etdiyimiz bu mənzərə bəs daxildən necə görünür? Ümumiyyətlə, müxtəlif rayonları təmsil edən məcburi köçkünlərin gün-güzəranı necə keçir? Onlar hansı qayğılarla dolanır, hansı ümidlərlə yaşayırlar?

Qəsəbəyə baş çəkdik və öyrəndik ki, Qaradağ rayonu ərazisində yerləşən bu qəsəbə kimi respublikamızda son illər onlarla şəhərcik istifadəyə verilib. Ümumiyyətlə, 2001-2014-cü illər ərzində Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına 2,8 milyon kvadratmetr sahəsi olan, bütün sosial-texniki infrastruktura malik 90 müasir qəsəbə salınıb və 230 min nəfərədək qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Yeni salınan yaşayış məntəqələrində 146 məktəb, 6 musiqi və 1 incəsənət məktəbi, 1 mədəniyyət sarayı, 57 uşaq bağçası, 56 tibb məntəqəsi, 50 mədəniyyət mərkəzi, 2 olimpiya idman kompleksi, 206 ədəd müxtəlif tutumlu su anbarı, 64 ədəd nasos stansiyası tikilib, 695 kilometr yol, 817 kilometr su, 1526 kilometr hava elektrik, 398 kilometr qaz, 38 kilometr rabitə, 20 kilometr istilik, 76 kilometr kanalizasiya xətti, 157 kilometr drenaj şəbəkəsi çəkilib. 785 ədəd müxtəlif gücə malik elektrik transformatoru quraşdırılıb. Eləcə də gücünə görə son 20 ildə ən böyük elektrik yarımstansiyası da (280 meqavat) məcburi köçkünlər üçün 2007-ci ildə Ağcabədi rayonunda istifadəyə verilib. Bu yarımstansiya 5 rayonun - Ağcabədi, Ağdam, Bərdə, Beyləqan və İmişli rayonlarının elektrik enerjisinə olan tələbatının ödənilməsində böyük rol oynamaqdadır.

Son 20 ildə həcminə görə ən böyük - 1300 şagirdlik məktəb də 2012-ci ildə məcburi köçkünlər üçün burada - Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində tikilərək istifadəyə verilib. Bu geniş məhəllə Prezident İlham Əliyevin 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na Azərbaycan Prezidentinin 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilən əlavələrin müvafiq bəndlərinə əsasən 22 hektarlıq bir ərazidə salınıb. Yeni məhəlləyə 1440 ailə və ya 5 min 756 məcburi köçkün köçürülüb. Buradakı 1440 mənzildən 211-i birotaqlı, 659-u ikiotaqlı, 429-u üçotaqlı, 141-i isə dördotaqlıdır. Məhəllədə 140 yerlik uşaq bağçası da inşa olunub. Ərazidə klub-icma mərkəzi, inzibati bina, təcili yardım stansiyası, poçt şöbəsi və ikiçıxışlı yanğınsöndürmə deposu da fəaliyyət göstərir. Tikintisinə 2012-ci ilin fevralında başlanılan məhəllə qısa müddətdə istifadəyə verilib. Qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin nəticəsidir ki, bu gün ölkəmizdə bir dənə də olsun çadır şəhərciyi qalmayıb, bu insanların hamısı müasir tipli qəsəbələrə köçürülüb. Bunu bizimlə söhbətdə qəsəbədə yerləşən Füzuli rayonu 50 saylı tam orta məktəbin direktoru Günel Kazımova dedi:

- Prezident İlham Əliyevə təşəkkür edirik ki, belə gözəl, təmiz və səliqəli bir yerdə məcburi köçkünlər üçün müasir standartlara uyğun qəsəbə saldırıb. Evlər işıqlı, mənzillər genişdir. Respublikada ən yaxşı məktəblərdən biri də burada inşa edilib. Onu da deyim ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu məktəb *"Azərbaycanda müstəqillik dövründə tikilmiş ən böyük məktəbdir. 1300 şagird yerlik məktəb son 20 il ərzində tikilmiş ən böyük, çox gözəl, geniş məktəbdir".* Məktəb Avropa standartlarına tam cavab verir. Burada şagirdlərin təhsil alması üçün hər cür şərait yaradılıb. Eyni zamanda, qəsəbədə kitabxana və digər vacib iaşə obyektləri inşa edilib. Bildiyimiz kimi, insanların formalaşmasında və inkişafında sosial mühit əsas amillərdəndir. Bunu dəfələrlə mütəxəssislərin, araşdırmaçıların etiraflarında da eşitmişik. Bu məsələni xatırlatmaqda məqsədim bizim üçün yaradılan sosial şəraitin üstünlüyünü vurğulamaqdır. Bu şərait təhsil prosesində də özünü tam aydın göstərir.

Üç buraxılış ili şəhərdə yerləşən məktəbdə işləyirdik. Artıq iki ildir ki, burada fəaliyyət göstəririk. Əminliklə deyə bilərəm ki, şəhərdəki buraxılış siniflərinə baxanda buradakı gənclər daha çox vətənpərvərdirlər. Uşaqlar hərb sahəsinə daha çox meyillidirlər. Bunu həm dərs prosesində hiss edirik, həm də onların sonrakı həyat fəaliyyətlərində müşahidə edirik. Bu il iki şagirdimiz öz istəyi ilə hərbi sahəni seçdi. Keçən il isə üç şagirdimiz bu sahəyə üstünlük vermişdi. Digər tərəfdən, həm valideynlər, həm də biz müəllimlər şagirdlərdə hərbi-vətənpərvərlik ruhunun yüksək olması üçün əlimizdən gələni edirik. Azərbaycan Prezidentinin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bu vacib amilin həqiqətən son dövrlərdə dövlət siyasətinin mühüm prinsipləri sırasında olduğunu bir daha təsdiqləyir. Gördüyünüz kimi, bu proses təkcə paytaxtla, böyük şəhərlərlə məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət edir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən mühüm işlər göz qabağındadır.





Məktəbimiz rayon rəhbərliyinin daim nəzarətindədir. Bütün problemlərimizin həllində rayondan hər cür dəstək görürük. Belə ki, hər il Füzulinin işğalı ilə bağlı rayonda və paytaxtda keçirilən tədbirlərdə məktəbimiz ön sıradadır. Tez-tez məktəblilərlə birgə Şəhidlər xiyabanına gedirik. Eyni zamanda, şagirdləri tez-tez Füzuli rayonuna ekskursiyaya aparırıq. Bundan əlavə, müəllimlərimiz şagirdləri muzeylərə, mədəniyyət ocaqlarına və s. tarixi yerlərə aparırlar. Onlara Azərbaycanın tarixi, abidələri haqqında ətraflı, geniş məlumat verilir. Sözsüz, belə tədbirlər şagirdlərə vətəni sevdirir, düşmənə qarşı nifrət hissini daha da artırır. Ən çox diqqət olunan məsələlərdən biri işğal olunmuş torpaqlarımız barədə yeniyetmələrə dəqiq məlumat vermək, onlara bu elin, torpağın hər qarışını tanıtmaqdır. Bu uşaqlar özləri işğal olunmuş torpaqlarımızı görməsələr də, canları, qanları ilə o torpaqlara bağlıdır. Ata yurdu kimi hər bir gənc o yerləri görməyi özünə borc bilir.

Təbii ki, heç zaman yüzfaizli nəticədən danışmaq mümkün deyil. İş olan yerdə nöqsan olmalıdır. Bununla belə, biz əlimizdən gələni edir, təhsilimizi günün tələblərinə uyğun qurmağa çalışırıq.

Dövlət başçısı və xanımı Mehriban Əliyeva 2012-ci ildə qəsəbənin açılışı zamanı məktəbimizdə olarkən idman zalında təşkil olunan Qarabağ xalçalarından və əraziləri işğal edilmiş rayonların tarix-diyarşünaslıq muzeylərinin eksponatlarından ibarət sərgi ilə tanış oldular. Dövlət başçısının eksponatlara baxarkən dediyi sözlər hamının yaxşı yadındadır: *"Erməni quldurları, erməni vəhşiləri tərəfindən bizim bütün tarixi abidələrimiz dağıdılıbdır. Məktəbin idman zalında indi nümayiş etdirilən eksponatlar bizim tarixi sərvətimizdir. Ancaq bizim o muzeylərdə saxlanılan əsas maddi irsimizin nümunələri artıq ermənilər tərəfindən talan edilib, dağıdılıb, yandırılıb. Bizim məscidlərimiz, qəbirlərimiz dağıdılıb. Bunu ermənilər ediblər, erməni faşistləri ediblər".*

Bəzən düşmənlərimiz mətbuatda yazırlar ki, Qarabağı görməyən, orada doğulmayan uşaqlar, gənclər o yerlərə qayıtmayacaqlar. Amma yanılırlar. Görün torpaqlarımız qayıdanda burada - bu rahat evlərdə kimsə qalacaqmı? Bir müəllim, bir valideyn, bir ana kimi əminliklə deyə bilərəm ki, mənim övladlarım da daxil olmaqla, hamı bir nəfər kimi öz yurd-yuvasına qayıdacaq. O dağılan, xarabalığa çevrilən kəndləri, şəhərləri məhz bu gün təhsil alan indiki uşaqlar, gənclər yenidən qurub-yaradacaq, gülüstana çevirəcəklər. Yetər ki, indiki kimi hər yerdə gənclərimizə şərait yaradılsın, onların zəhməti, hünəri, bacarığı yetərincə qiymətləndirilsin, hər yerdə onlara üstünlük verilsin, indiki kimi irəli çəkilib etimad göstərilsin. Doğma yurdun səfasını da, cəfasını da çəkməyi bacarmalıyıq.

Zəngilan rayonu Məmmədbəyli kənd sakini Əlağa Mirzəyevlə də qəsəbədə fəaliyyət göstərən mənzil-kommunal istismar şöbəsində görüşüb tanış olduq. Çəkdiyi əzab-əziyyətlər onun torpaq, yurd həsrətinə üstün gələ bilməyib. Bir gün bu həsrətin sona yetəcəyinə əmindir:

- 1993-cü ildə rayonumuz işğal olunduqdan sonra Yasamal rayonunda, Bakı Dövlət Universitetinin tələbə yataqxanasında məskunlaşmışdıq. Ulu öndərin yolunu uğurla davam etdirən Prezident İlham Əliyev öz diqqətini bizdən əsirgəmədi. Digər qaçqınlar, məcburi köçkünlər kimi, bizə də xüsusi qayğı, diqqət göstərildi, Qaradağ rayonundakı Müşfiqabad qəsəbəsində salınmış yeni yaşayış binalarında bizə mənzil verildi. Biz elə o zaman cənab Prezidentə minnətdarlığımızı bildirdik. Buradakı mənzillərdə hər bir şərait yaradılıb. Geniş otaqlardır, şəhərin mərkəzindəki yeni tikililərdən heç də geri qalmır. İşıq, su pullarından və digər kommunal xərclərdən azadıq. Qəsəbədə geniş yaşıllıq zolaqları yaradılıb. Az qala bizim Zəngilanda olan meşələri xatırladır. Orada olan çinar ağaclarını burada da əkmişik. Elə həmin çinar sortlarındandır.

Rayonda hamı bizə hörmətlə yanaşır, hansı idarəyə gedirik, problemlərimiz dərhal həll edilir. Aydın məsələdir ki, belə bir diqqət cənab Prezidentin bizə olan hörmətindən, qayğısından irəli gəlir. Sözsüz ki, onun diqqəti, qayğısı olmasaydı, bütün problemlərimiz belə tezliklə həll olunmazdı. Qəsəbədə 100-dən çox zəngilanlı ailəsi var. Yeni seçki məntəqəsi - Zəngilan-Qubadlı seçki dairəsinin 54 saylı məntəqəsi də burada fəaliyyət göstərir. İnşallah, qarşıdan parlament seçkiləri gəlir, orada da fəal iştirak edəcəyik. Artıq bu fəallığı indidən hiss edirik. Biz Zəngilan, Şuşa, Laçın kimi yurdlarımızı qoyub gəlmişik. Bunlar hamısı ermənin xəyanəti nəticəsində baş verib. Lakin heç zaman biz o yerləri unuda bilməyəcəyik və şübhə etmirik ki, gec-tez öz doğma torpaqlarımıza qayıdacağıq. Təsadüfi deməyiblər ki, insanın göbəyi harada kəsilibsə, ora həmişə bağlı olur, ömrünün sonuna kimi ora can atır. Burada bizim üçün nə qədər rahat şərait yaradılsa da, nə qədər qayğı ilə əhatə olunsaq da, öz doğma kəndimizi istəyirik. Ata-baba yurdunu, ata qəbrini heç vaxt yaddan çıxarmaq olmaz. Mən istəyirəm ki, doğmalarımın məzarını ziyarət edim. Heç şübhə etmirəm ki, o günü görəcəyəm. O yerləri tez-tez yuxumda görürəm. Bizim ora gedəcəyimiz gün çox yaxındadır. Ümumilikdə isə ölkə rəhbərinin uğurlu siyasəti, güclü ordumuzun formalaşması artıq buna zəmin yaradır.

Həmsöhbətim ordu quruculuğundan, gənclərin hərbə marağından razılıq edir: "Müdafiə nazirinə çox minnətdarıq. Ali Baş Komandanın etimadını doğruldur. Bütün tapşırıqlar layiqincə yerinə yetirilir. Əsgərlərə xüsusi qayğı göstərilir. Onların fiziki durumu, formaları əsl Azərbaycan əsgərinə layiqdir. Bu gün elə bir gənc yoxdur ki, hərbi xidmətə getməyi arzu etməsin. Ümumilikdə hərb sahəsinə meyil çox güclüdür. Hər kəs silaha sarılaraq vətənin müdafiəsinə qalxmağa hazırdır. Hamı bir nəfər kimi xidmətə gedir və gələnlər də ordumuzdan, oradakı vəziyyətdən razılıq edirlər. İki oğlumun ikisi də hərbi xidməti başa vurub. Mən də, iki övladım da torpaqlarımızın müdafiəsinə hər zaman hazırıq. Çünki vətəni biz özümüz qorumalıyıq. Tək bir əmr bizə kifayət edir ki, ayağa qalxaq. Onu da deyim ki, hazırda bu qəsəbədə yaşayanlar arasında Zəngilandan olan neçə-neçə zabit var. Elə zəngilanlı ailələr var ki, üç qardaşın üçü də hərbçidir, özü də hər biri döyüş bölgələrində xidmət edir. Bir faktı da deyim: Qarabağı bəlkə də bizdən çox övladlarımız arzulayır. Bəzən mənə elə gəlir ki, oğlum məndən daha çox oralar üçün darıxır. Hətta nəvələrimdə də bunu hiss etmişəm. Onlar o görmədikləri torpaqları bu gün yaşadıqları bu yerlərlə müqayisə etməkdən yorulmurlar. Tez-tez "baba, bizə Zəngilandan danış", - deyirlər. Məncə, bu, genetik bağlılıqdır, istəkdir, torpaqdan gələn kodlardır. Vaxt gələcək, onlar təhsillərini başa vurub Zəngilanda, Qarabağın ayrı-ayrı rayonlarında xidmət edəcək, çalışacaqlar. İnşallah, biz də o günü görərik! Gün gələr, sizinlə o yerlərdə görüşərik!

Bu qəsəbənin ən vacib, təkrarsız xüsusiyyətlərindən biri də uşaqlı-böyüklü, müəllimli-şagirdli, vəzifəli-vəzifəsiz hamının eyni acı taleyi paylaşması, məcburi köçkün olmasıdır. Cəbrayıl rayonunun Daşkəsən kəndində doğulan, son illər buradakı mənzil-istismar sahəsinin rəisi vəzifəsində çalışan Qabil Quliyev kimi. İxtisasca coğrafiya müəllimi olsa da, həyat bu illər ərzində ona çox hikmətləri, sirləri öyrədib. Kənddə adi müəllim kimi fəaliyyətə başlayıb, sonra tərbiyə işləri üzrə direktor müavini, məktəb direktoru olub, uzun illər kənd sovetində işləyib. Bir sözlə, özü dediyi kimi, həyatının ən gözəl günləri Cəbrayılda keçib. Hazırda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Mənzil-İstismar Departamentinin Qaradağ rayonunun Müşfiqabad qəsəbəsi üzrə Mənzil-Kommunal İstismar Sahəsinin rəisidir:

- Mən qaçqın düşəndə 38 yaşım vardı. Ancaq bu 38 il mənə bütün dünyanı bəxş etmişdi. Cavan olsam da, həyatı tam dərk etmişdim. Bir çox işlərdə, vəzifələrdə çalışmışam. 1993-cü ildə məlum hadisələr üzündən Cəbrayıl rayonundan gəlib Bakı şəhərində məskunlaşdıq. Bir oğlum, bir qızım var. Qızım müəllimdir, oğlum isə ixtisasca həkimdir. Hazırda Müdafiə Nazirliyinin hərbi hissələrinin birində həkim kimi çalışır. Bura gələnə qədər - 2014-cü ilin avqust ayına kimi Bakıda müxtəlif ünvanlarda yaşamışıq. Hazırda Müşfiqabad qəsəbəsindəki 22 binada 1600 ailə məskunlaşıb. Ümumilikdə əhalinin sayı 6 min 291 nəfərdir. Rayonlara gəldikdə isə, əsasən Ağdam, Füzuli, Zəngilan və Cəbrayıldan olan məcburi köçkünlərdir. İşğal altında olan rayonlarımızın hər birindən burada da yaşayanlar var. 458 ailə Ağdamdan, 431 ailə Cəbrayıldan, 291 ailə Füzulidən, 140 ailə Zəngilandan, qalanları da başqa rayonlardandır. Ümumilikdə 25 hektara qədər ərazimiz var. Qəsəbə salındıqdan sonra yaşıllıqların sahəsini artırmaq ən vacib məsələlərdən biri idi. Gördüyünüz kimi, indi kifayət qədər yaşıllıq var. Təkcə son dövrlər burada 4 min çinar ağacı, 300 ədəd Eldar şamı, 1000 ədəd də həmişəyaşıl ağaclar əkilib. Ərazimizdə 3 hektar park var. Ərazimizdə bir məktəb binası olsa da, orada 4 rayon məktəbinin şagirdləri təhsil alır. Onlar hamısı bir binada yerləşir. Qəsəbədə bağça və tibb məntəqəsi də fəaliyyət göstərir. Hər bir sahə üzrə ixtisas həkimləri var. Burada fəaliyyət göstərən Ağdam rayon kitabxanası da hamının xidmətindədir. Geniş, yaraşıqlı klubumuzda isə insanların asudə vaxtının təşkili baxımından xeyli işlər görülür. Onu da deyim ki, daim Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Baş nazirin müavini Əli Həsənovun diqqət və qayğısını hiss edirik.

Sonda həmsöhbətimiz bir həsrətini də dilə gətirdi: bütün bunlara baxmayaraq, fikrimiz, qəlbimiz, ruhumuz qoyub gəldiyimiz o torpaqlardadır. Doğrudan da burada yaradılan şərait ən yüksək standartlara cavab versə də, geniş, işıqlı otaqlar, gözəl məktəb, uşaq bağçası göz oxşasa da, bütün kommunikasiyalar, işıq, qaz, su xətləri - hər şey fəaliyyətdə olsa da, hamı burada müvəqqəti yaşadığının fərqindədir. Həqiqətən, gün gələcək, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik və oradakı dağıdılmış şəhərləri, kəndləri yenidən qurmağa, bərpa etməyə başlayacağıq. Prezident İlham Əliyevin dediyi kimi: *"Biz soydaşlarımız üçün müvəqqəti olaraq belə gözəl binalar tikirik. Siz də bilirsiniz, biz də bilirik ki, bu, müvəqqəti yaşayış yeridir. Bu yerlərdə hələ ki siz yaşamalısınız və müvəqqəti də olsa, şərait yaxşı olmalıdır".*

***Bəxtiyar QARACA,***
***"Azərbaycan"***

# "Ay Allah, məni Kəlbəcərimə yetir"

Əyyub Qafarov 66 illik ömründə heç vaxt belə istilər görməmişdi. Hər tərəf elə bil od tutub yanırdı. Qızmar günəş altında torpaq da sanki canını qoymağa yer tapmırdı. Otalaf istidən qovrulub məhv olduqca Əyyubun qanı qaralırdı. Ağlından özünün də xoşuna gəlməyən bəd fikirlər keçirdi: "Allah eləməmiş, mal-qara tələf olub əlimdən çıxsa, nə edərəm, bir çətən küfləti necə dolandıraram?" Qaçqınlıq dövrünün arxada qalan 22 illik dövründə çox çətinliklərlə qarşılaşsa da, ancaq indiki istilərdən çəkdiyi əzab-əziyyəti heç vaxt görməmişdi. Kəlbəcərdən əvvəl piyada, sonra isə yük vaqonunda 3-4 baş inək, 1 at, 30 baş qoyun gətirmişdi. Mal-qarasını nəzərə alıb ona Salyandakı "Kökəltmə" adlanan təsərrüfatda yer vermişdilər. Həmin birlik 70-ci illərdə rayondakı kolxozların köməyi ilə yaradılmışdı. O dövrdə 3-4 aylıq erkək buzovlar buraya gətirilir, xüsusi qulluq nəticəsində kökəldilib kəsimə verilirdi.

Əyyub özü, ailəsi canlarını dişlərinə tutub Muğanın istisinə, iqlim şəraitinə dözüb yaşadılar, uşaqlarını böyütdülər. İndi onların özləri oğul-qız sahibləridir.

Hər həftənin sonu Əyyubu Salyan şəhərindəki bazarda görmək olardı. Qoyundan tutduğu pendirdən satmağa gətirərdi. Sonra lazım olanlardan, qənddən-çaydan alıb aparardı. Hər dəfə bazara gələndə müştəriləri bilirdilər ki, yağlı, dadlı pendir alacaqlar. Əyyub da dağ adamına məxsus səxavət göstərib kiloqramını 3 manata satdığı qoyun pendirini ağırlaması ilə çəkərdi. Xoş rəftarı, ürəyinin geniş olması, səmimiyyəti ona hörmət-izzət qazandırmışdı.

Bir neçə həftə Əyyub bazara gəlmədi. Onunla bazara gələn bacısı qızı soruşanlara xəstələndiyini dedi. Tanışları Əfsər, Saday, Elton, Eldar tez bazarlıq edib taksi tutdular. Yol rahat olduğundan yarım saatdan sonra "Kökəltmə"yə çatdılar. Taksini saxlatdırıb, su kanalının üstündə dayanan oğlandan Əyyubun evini soruşdular. Oğlan əli ilə yaşıl rəngli "Jiquli"nin dayandığı qapını göstərdi. Həyət qapısı açıldı.

- Çox sağ olun, əziyyət çəkmisiniz, Allah ömrünüzü uzun eləsin.

Hiss olunurdu ki, evin xanımı Əyyuba dəyməyə gələnləri yola salır. O, eyni mehribanlıqla:

- Xoş gəlmisiniz, buyurun içəri, - deyir.

Otağa keçdilər. Manafağa həkim də burada idi. Xəstəni müayinə edirdi. Manafağa Feyzullayevi Salyanda tanımayan yoxdur. Yaxşı həkim olmaqla bərabər, mehriban və xeyirxah insandır. Hərdən şeir yazmağı da var. Müayinə qurtarandan sonra qonaqlar Əyyubla əl verib görüşdülər, halını xəbər aldılar.

- İndi bir az yaxşıyam. Göydə Allah, yerdə Manafağa həkim məni ölümün əlindən aldı. Zəhmət çəkmisiniz. Hamınızın işiniz-gücünüz var, - dedi.

Həkimdən halını soruşdular.

- Əvvəlkinə baxanda xeyli irəliləyiş var. Ümidliyik ki, yaxşı olacaq. Ancaq gərək özünü qoruya, ürəyi üçün yazılan dərmanları müntəzəm qəbul eləyə. Belə isti günlərdə bayıra çıxmaya.

Masaya çay gəldi. Bu zaman həyətdən maşın səsi eşidildi. Çox çəkmədi, şümal bir oğlan uşağı içəri girdi:

- Ata, ustaları gətirdim. Məsləhət gördülər ki, bu kondisioner yaxşıdır, pulunu da kredit yolu ilə yavaş-yavaş ödəyərik.

Ustalar otağa daxil olub salam verdikdən sonra işə başladılar. Təxminən 40 dəqiqədən sonra onlar kondisioneri cərəyana qoşdular. Sərin hava otağa yayıldıqca Əyyubun ürəyinə taqət gəlirdi. Gözləri doldu. Xəyalından doğma yerlərin dağları, çayları, buz bulaqları keçdi. Hər iki əlini yuxarı qaldıraraq:

- Sənə qurban olum, ay Allah, məni Kəlbəcərimə yetir, - dedi.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Azərbaycanın Britaniyadakı səfirinin "The Guardian" qəzetində ölkəmiz haqqında qərəzli fikirlərə cavab məktubu dərc olunub



Bu günlərdə Böyük Britaniyanın "The Guardian" qəzetində erməni aktivist Simon Mğakyanın milli mədəni irsimiz ilə bağlı həqiqətə uyğun olmayan məktubu dərc edilmişdi. Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadənin qəzetdə aktivistin təxribat dolu fikirlərinə cavab məktubu dərc olunub.

Səfir qeyd edir ki, erməni aktivistin dünya mədəni irsinin qorunmasından danışaraq Azərbaycan tərəfini günahlandırması olduqca absurddur. Çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma torpaqlarımızda etnik təmizləmə siyasəti apararaq illərdir mədəni və tarixi irsimizi silməyə çalışan məhz Ermənistan tərəfidir. Ermənistan işğalçı əməllərini vəhşicəsinə və zorakılıqla həyata keçirir. Britaniyalı səyyah George Mitşell Ağdamı ziyarət edərkən buranı "ruhlar şəhəri" adlandırıb və bölgənin təbiətinin, mədəni irsinin vəhşicəsinə məhv edildiyini yazıb. Ermənistan beynəlxalq təşkilatlar tərəfindən bölgədə araşdırılma aparılmasından imtina edib.

Azərbaycan bütün dini və etnik azlıqların tarixi və mədəniyyətinə hörmətlə yanaşır və bununla fəxr edir. Bunun ən gözəl nümunəsi bizə qarşı düşmənçilik siyasəti yeritməsinə baxmayaraq, erməni kilsəsinin Bakı şəhərində illərdir mədəniyyət nümunəsi kimi saxlanılmasıdır.

***Orxan İSMAYILOV,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*London*

# Türkiyədə COMCEC-in Turizm üzrə İşçi qrupunun iclası öz işinə başlayıb

Sentyabrın 3-də Ankara şəhərində İslam Əməkdaşlıq Təşkilatı İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) Turizm üzrə İşçi qrupunun "Effektiv Turizm Marketinq Strategiyaları: İƏT-ə üzv olan ölkələr üçün İKT (informasiya və kommunikasiya texnologiyaları) əsaslı həll yolları" mövzusunda 6-cı iclası öz işinə başlayıb.

Mədəniyyət və Turizm Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclas zamanı üzv ölkələrdə turizm marketinqində İKT vasitələrindən istifadə, bu sahədə mövcud vəziyyət, əsas problemlər və onların həlli yolları, ölkələrin bu sahədəki təcrübələri, tövsiyə və perspektivlər müzakirə edilir.

Tədbirdə ölkəmizi təmsil edən Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Cavid Abdullayev Azərbaycanda İKT sahəsinin son illər ərzində inkişaf səviyyəsi, dövlətin bu sahəyə göstərdiyi diqqət, əldə edilən nailiyyətlər və turizmin inkişafında İKT-nin rolundan bəhs edib.

Daha sonra, İKT vasitəsilə turizm potensialının təbliği və bu sahədə ölkələrin uğurlu nümunələrinə həsr edilmiş sessiya zamanı keçirilən müzakirələr çərçivəsində nazirliyin nümayəndəsi Azərbaycanın elektron marketinq istiqamətində həyata keçirdiyi mühüm islahatlar, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yaradılmış www.azerbaiyan.travel rəsmi internet səhifəsi və onun istər gəlmə, istərsə də daxili turizmin inkişafında oynadığı rol və ölkəmizin turizm potensialının digər elektron marketinq vasitələri ilə təbliği barədə geniş məlumat verib.

Tədbirdə İƏT-ə üzv olan ölkələrin və beynəlxalq təşkilatların rəsmi nümayəndələri iştirak edir.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 174 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan, qumbaraatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 174 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Dovex, Barekamavan, Voskepar kəndlərində yerləşən mövqelərdən Azərbaycan Ordusunun Qazax rayonunun Kəmərli, Qaymaqlı və Aşağı Əskipara kəndlərində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə, Ayqepar, Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqeləri atəşə tutulub.

Azərbaycan Respublikasının Goranboy rayonunun Tap Qaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Güləbürt, Göyarx, Çaylı, Yarımca, Ağdam rayonunun Novruzlu, Sarıcalı, Kəngərli, Yusifcanlı, Şıxlar, Şuraabad, Mərzili, Qaraqaşlı, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Əbdürrəhmanlı, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqelərinə atəş açılıb.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 236 atəş zərbəsi endirib.

# ATƏT nümayəndələri təmas xəttində monitorinq keçirəcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 4-də Azərbaycan Respublikasının Xocavənd rayonunun Kuropatkino kəndi yaxınlığında qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Saymon Tiller və Piter Svedberq keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjiy Kaspşik, səhra köməkçiləri Jiri Aberle və Yevgeni Şarov nəzarət edəcəklər.

# Sentyabrın 18-i Kaliforniyanın Santa-Monika şəhərində "Üzeyir Hacıbəyli Günü" elan olunub

**Azərbaycan klassik musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 130 illiyi ilə əlaqədar ABŞ-ın Kaliforniya ştatının Santa-Monika şəhərində xüsusi gün elan olunub.**

Şəhərin meri Kevin Makkion (Kevin McKeown) tərəfindən xüsusi bəyannamə imzalanaraq 2015-ci il sentyabrın 18-nin "Üzeyir Hacıbəyli Günü" kimi qeyd olunacağı bildirilib. Los-Anceles şəhərinin qonşuluğunda yerləşən Santa-Monika bir çox Hollivud ulduzlarının və rejissorlarının yaşadığı şəhər kimi tanınır.

Azərbaycanın Los-Ancelesdəki Baş konsulluğuna təqdim olunmuş bəyannamədə Ü.Hacıbəylinin Azərbaycan klassik musiqisinin banisi olduğu vurğulanır, onun əsərlərində Şərq və Qərb musiqisinin çalarlarından geniş istifadə edildiyi diqqətə çatdırılır.

Ölməz bəstəkarın milli musiqimizə verdiyi töhfələrlə yanaşı, onun jurnalist, müəllim və tərcüməçi kimi Azərbaycan maarifçiliyində oynadığı roldan bəhs edilir, Ü.Hacıbəylinin bu istiqamətdəki fəaliyyətinin ölkə sərhədlərini aşaraq bütün Avrasiyada insanların tərəqqisinə işıq saçdığı qeyd olunur.

Həmçinin Ü.Hacıbəylinin müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin formalaşmasında önəmli rol oynadığı və Azərbaycanın ilk himninin müəllifi olduğu xüsusi vurğulanır.

Bəyannamədə dahi bəstəkarın müsəlman Şərqində ilk opera və operettanın müəllifi olduğu qeyd edilərək, dünya şöhrətli "Arşın mal alan" operettası və filmi barədə məlumat verilir və bu ekran əsərinin rəngli versiyasının sentyabrın 19-da ABŞ-da ilk dəfə Los-Ancelesdə nümayiş etdiriləcəyi bildirilir.

***Yusif BABANLI,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Vaşinqton*

# Azərbaycan milli peşəkar teatrının 143-cü mövsümünün rəsmi açılışı Gəncədə keçiriləcək

**Azərbaycan milli peşəkar teatrının 143-cü mövsümünün açılışı sentyabrın 14-də Gəncədə keçiriləcək.**

Mədəniyyət və Turizm Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Gəncə Dövlət Dram və Gəncə Dövlət Kukla teatrlarının da yaxından iştirakı ilə təşkil olunacaq təntənəli mərasimə rəsmilər, tanınmış incəsənət xadimləri, respublikada fəaliyyət göstərən teatrların rəhbərləri qatılacaqlar.

Mövsümün rəsmi açılışına həsr olunmuş mərasimdən sonra Gəncə Dövlət Dram Teatrının Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" pyesi əsasında hazırladığı eyniadlı tamaşanın premyerası olacaq. Teatrın baş rejissoru İradə Gözəlovanın quruluş verdiyi tamaşada əsas rolları Xalq artisti Pərvanə Qurbanova, Əməkdar artistlər Elxan Abbasov, İlham Hüseynov, Ramiz Vəliyev, Faiq Qasımov və digər aktyorlar ifa edirlər.

Qeyd edək ki, son illər yeni teatr mövsümünün açılış mərasimləri paytaxt Bakı ilə yanaşı, digər şəhərlərimizdə də keçirilir. 2011-ci ildə 139-cu teatr mövsümünün rəsmi açılışı Mingəçevirdə, 2014-cü ildə 142-ci mövsümün açılışı isə Şəkidə təşkil olunub.

# Bakı şəlalələri







Onları süni şəlalə adlandırmağa heç kəsin dili gəlməz. Dağlardan, qayalardan axan şəlalələri şəhərin qoynuna "gətirmək" insan ağlının və əməyinin nəticəsi olmaqla bərabər, həm də xeyirxah əməldir. Çünki bu şəlalələrə baxdıqca, onların ətrafında dincəldikcə paytaxtın sakinləri və qonaqları özlərini təbiətin qoynunda olduğu kimi hiss edirlər. Bakının isti yay günlərində şəlalələr insanlara xüsusi zövq və sərinlik gətirir.

Əvvəllər yalnız şəhərin mərkəzində bir-iki yerdə belə şəlalələrə rast gəlmək mümkün idisə, indi onlar Bakının digər yerlərində də böyükdən-kiçiyə hamıya məmnunluq bəxş edir.

***Foto Fərman BAĞIROVUNDUR,***
***"Azərbaycan"***

## İdman

# Xorvatiya millisi ilə heç-heçə

Futbol üzrə 2016-cı ildə keçiriləcək Avropa çempionatının seçmə mərhələsi çərçivəsində sentyabrın 3-də Azərbaycan milli komandası ilk oyunda Xorvatiya millisi ilə qarşılaşıb. Görüşdə ilk təhlükəli vəziyyəti oyunun 2-ci dəqiqəsində qonaqlar yaradıblar. Matçın 12-ci dəqiqəsində isə Dmitri Nazarovun cərimə zərbəsini Xorvatiya millisinin qapıçısı Daniel Subaşiç çətinlik çəkmədən dəf edib. Matçın ilk hissəsində hesab açılmayıb və komandalar fasiləyə qolsuz heç-heçə ilə yollanıblar.

Fasilədən sonra fəallığı bir qədər artıran komandalar ilk dəqiqələrdən təhlükəli vəziyyətlər yaradıb. Oyunun 48-ci dəqiqəsində Dmitri Nazarovun zərbəsini rəqib qapıçı məharətlə dəf edib. Dərhal əks-hücuma keçən xorvatiyalıların hücumundan sonra əvvəlcə qapı tiri, sonra isə müdafiəçi Bədavi Hüseynov komandamızı qoldan xilas edib. Qarşılaşmanın 62-ci dəqiqəsində Ruslan Qurbanovun gözəl zərbəsini Xorvatiya millisinin qapıçısı tutub. İkinci hissənin ortalarında meydana daxil olan Mateo Kovaçiçin zərbəsini Kamran Ağayev çətinliklə dəf edib. Beləliklə, Azərbaycan-Xorvatiya qarşılaşması qolsuz heç-heçə ilə başa çatıb - 0:0.

# Hacıqabulda yeni idman qurğulari istifadəyə verildi



İdman, bədən tərbiyəsi sağlamlıqdır. Fiziki hazırlığı, sağlamlığı yerində olan gənclərdə isə sağlam ruh olur. Bu iki keyfiyyət gənclərin həyatda mövqelərini müəyyənləşdirməsində, yüksək ideyalar, amallar uğrunda mübarizə aparmasında, Vətəni, yurdu, eli-obanı sevməsində mühüm rol oynayır. Elə buna görə də ölkəmizdə bu istiqamətdə ardıcıllıqla tədbirlər həyata keçirilir. Bölgələrdə tikilən olimpiya idman kompleksləri, stadionlar, ayrı-ayrı idman qurğuları buna əyani nümunədir. Bu ilin iyununda Bakıda ilk Avropa Oyunlarının ən yüksək səviyyədə keçirilməsi, idmançılarımızın qazandıqları parlaq qələbələr Azərbaycanın idman ölkəsi olduğunu bir daha nümayiş etdirdi.

Ölkənin hər yerində olduğu kimi, Hacıqabulda da idmana daim diqqət və qayğı göstərilir. Daxili imkanlar hesabına tikilən təbii ot örtüklü futbol stadionunun, voleybol, basketbol, həndbol oyunları üçün süni ot örtüklü idman meydançasının və güləş zalının bu günlərdə açılışı oldu. Burada inşa edilmiş soyunub-geyinmə və duş otaqları artıq idmançıların ixtiyarındadır.

Yeni idman qurğularının açılış mərasimi əsl bayrama çevrildi. Ayrı-ayrı idman növləri ilə məşğul olan yeniyetmə və gənclər məşqçilərinin rəhbərliyi altında öz bacarıqlarını nümayiş etdirdilər.

Açılış mərasimində çıxış edən rayon gənclər və idman idarəsinin rəisi Saleh Əsgərov idmançılar üçün yaradılan şəraitə, istifadəyə verilən qurğulara görə ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlığını bildirdi. O qeyd etdi ki, idman qurğuları rayon gənclərinin asudə vaxtlarını səmərəli keçirməsində, onların pis vərdişlərdən kənar qalmasında mühüm rol oynayacaq.

Rayon icra hakimiyyətinin başçısı Əhməd Muxtarov müxtəlif yarışlarda fərqlənmiş komandalara və ayrı-ayrı idmançılara kuboklar, vımpellər, fəxri fərmanlar və hədiyyələr təqdim etdi.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



## Beynəlxalq aləm: HADİSƏLƏR, FAKTLAR

# Qvatemala Prezidentinin həbsinə order verildi

Qvatemala məhkəməsi ölkənin hazırkı Prezidenti Otto Peres Molinanın həbsinə order vermişdir. Bu barədə "Assoşieyted Press" agentliyi ölkənin baş prokuroruna istinadən xəbər verir.

Bundan əvvəl Qvatemala parlamenti yekdilliklə Molinanı toxunulmazlıqdan məhrum etmişdir. Səsvermə cari ayın 6-na təsadüf edən prezident seçkilərinə bir neçə gün qalmış keçirilmişdir.

64 yaşlı Molina korrupsiyada ittiham olunur. Dövlət başçısı dəfələrlə günahkar olmadığını bəyan etmiş və istefa tələbi ilə keçirilmiş çoxsaylı etiraz aksiyalarına baxmayaraq, bildirmişdi ki, Prezident vəzifəsini tərk etməyəcək.

Son məlumata görə, Molina məhkəmənin həbs qərarı açıqlanan kimi istefaya çıxmışdır.

# Çin ordusu 300 min nəfər azaldılacaq



CXR Sədri Si Szinpin Asiyada İkinci Dünya müharibəsinin başa çatmasının ildönümü münasibətilə Pekində keçirilmiş təntənələrdə çıxış edərkən bildirmişdir ki, ölkə ordusunda 300 min hərbçi ixtisar olunacaq. Eyni zamanda Szinpin ixtisarın nə vaxt baş verəcəyini dəqiqləşdirməmişdir. Hazırda dünyanın ən böyük ordusunda - Çin ordusunda 2,3 milyon hərbi qulluqçu xidmət edir.

Yaponiyanın təslim olmasının 70-ci ildönümü münasibətilə Çin paytaxtında 12 min əsgər və zabitin iştirakı ilə hərbi parad keçirilmişdir. Qərbin aparıcı ölkələrinin liderləri təntənələrə qatılmaq dəvətini rədd etmişlər. Yaponiyanın Baş naziri Sindzo Abe də Pekinə gəlməkdən boyun qaçırmışdır.

# Suriyada epidemiya təhlükəsi



Suriyada bombardman və atışma nəticəsində zədələnmiş su təchizatı sistemi tamamilə dağıla bilər ki, bu da epidemiyalara gətirib çıxara bilər. Bu barədə "Frans Press" agentliyi Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) nümayəndəsinə istinadən xəbər verir.

BQXK-nın Yaxın Şərqdəki əlaqələndiricisi Patrik Hamilton agentliyə bildirmişdir ki, "yaxın iki il ərzində Hələb kimi şəhərlərdə hələ rast gəlmədiyimiz epidemiyalarla - yatalaq, vəba və s. xəstəliklərin yayılması ilə qarşılaşa bilərik". Onun dediyinə görə, Suriyada tibbi təminat sistemi dağılsa da, ölkə əhalisini "nisbətən sağlam" hesab etmək olar, amma su təchizatı yollarının sıradan çıxması vəziyyəti pisləşdirər.

BQXK-nın əməkdaşları 2011-ci ilin martında münaqişə başlayandan bəri Suriya ərazisində nasos stansiyalarının bərpasına kömək edirlər. BQXK və mühəndislər Hələbdə indiyədək 56 su quyusunu bərpa etmişlər. Təşkilat yerli əhaliyə KİV və sosial şəbəkələr vasitəsilə işləyən quyular barədə məlumat verir.

# Fransanın Rusiyaya ödəyəcəyi kompensasiyanın məbləği açıqlandı



Rusiya üçün iki ədəd "Mistral" helikopterdaşıyan gəminin inşası haqqında müqavilənin ləğvi Fransaya 949 754 859 avroya başa gələcək. Bu məbləğ Parislə Moskva arasında müqavilənin qüvvədən salınması haqqında saziş layihəsində əksini tapmışdır. Bu barədə "Frans Press" agentliyi Fransa parlamentinin aşağı palatasının - Milli Assambleyanın saytında yerləşdirilmiş qanun layihəsinə istinadən xəbər verir.

Agentlik qeyd edir ki, layihəyə sentyabrın 15-də Milli Assambleyanın Beynəlxalq məsələlər komitəsində baxılacaq. Bundan sonra sənəd parlamentarilərin müzakirəsinə çıxarılacaq.

Tərəflərin ötən ayın 5-də imzaladığı müqavilənin ləğvi sazişində qeyd olunur ki, Fransa Rusiyaya kompensasiyanı tamamilə ödəməyənədək gəmiləri hansısa formada üçüncü tərəfə sata bilməz.

Fransa KİV-i iki gəminin potensial alıcıları arasında Misir, Hindistan, Braziliya, BƏƏ, Səudiyyə Ərəbistanı, Vyetnam, Malayziya, Sinqapur kimi ölkələrin adlarını çəkir. Bir müddət əvvəl isə "Kommersant" qəzeti xəbər vermişdi ki, Moskva xüsusi olaraq "Mistral"lar üçün istehsal etdiyi Ka-52K helikopterlərini gəmilərin gələcək sahibinə satmağa ümid edir.

# Yəmən paytaxtında terror aktı



Yəmənin paytaxtı Sənada törədilmiş terror aktı nəticəsində 28 nəfər həlak olmuş, 75 nəfər yaralanmışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Şəhərin şimal hissəsindəki Müəyyəd şiə məscidində iki intiharçı özünü partlatmışdır. Onlardan biri məscidə soxulub bayıra çıxan möminlərə qarışmış və "şəhid qurşağı"nı işə salmışdır. Yerli sakinlər hadisə yerinə axışıb gələn kimi yaxınlıqda gözləyən ikinci intiharçı partlayıcı maddələr yüklənmiş avtomobili partlatmışdır.

Məsciddə törədilmiş terror aktına görə məsuliyyəti İŞİD üzərinə götürmüşdür. Cari ilin mart ayının ortalarından bəri İŞİD terrorçuları ölkədə 142 nəfərin ölümünə səbəb olmuşlar.

Hazırda təcili yardım briqadası və xilasedicilər partlayış yerində işləyirlər. Həkimlər ölənlərin sayının artacağını istisna etmirlər, çünki yaralananların bir çoxu ağır vəziyyətdədir. Yəmənin başqa bir şəhərində - Səədədə Qırmızı Xaçın iki əməkdaşı naməlum şəxsin açdığı atəşin qurbanı olmuşlar.

# Şəmkirdə distant mərkəzi yaradılır

Morul bölgəsində Nizami Gəncəvi adına tam orta məktəb üçün hər şəraiti olan üçmərtəbəli bina inşa olunur. Burada fiziki cəhətdən qüsurlu uşaqlara xidmət məqsədilə distant mərkəzi yaradılır. Rayon təhsil şöbəsində dedilər ki, mərkəz ilk vaxtlar 50 nəfər şəmkirli oğlan və qıza xidmət edəcək, sonra isə ətraf rayonlardan uşaqlar cəlb olunacaq.

***"Azərbaycan"***


# Bakcell abunəçilərinin nəzərinə

Telekommunikasiya subyektlərinin hüquq və vəzifələrinə dair yeni reklam qanunvericiliyinin müddəalarının təmin edilməsi ilə əlaqədar "Bakcell" MMC-nin qüvvədə olan standart Telekommunikasiya xidmətləri müqaviləsinə aşağıdakı məzmunda 3.3-cü bənd əlavə olunur: "3.3. "Abunəçi" bu Müqavilə əsasında məlumat, əyləncə və reklam növlərinə aid SMS-lərin avtomatik rejimdə onun nömrəsinə göndərilməsinə razıdır və "Abunəçi" hər hansı növ SMS-lərin qəbulundan imtina etdikdə həmin növlü SMS-lərin müvafiq nömrəyə göndərilməsi dayandırılır".


# Beş kiloqramdan çox narkotik maddəni Biləsuvar rayonu ərazisində satmaq istəyən İran vətəndaşı saxlanılıb

Respublikanın daxili işlər orqanları narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəni uğurla davam etdirir.

Daxil olan əməliyyat məlumatı əsasında Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbirlərlə İran İslam Respublikasının vətəndaşı Tizfəhim Fətullah saxlanılıb. Baxış zamanı onun əlindəki sellofan torbadan külli miqdarda narkotik vasitə - 5 kiloqram 190 qram tiryək aşkar edilərək götürülüb.

Müəyyən edilib ki, Tizfəhim Fətullah istintaqa məlum olmayan mənbədən satış məqsədilə tiryək əldə edərək özündə saxlayıb. Daha sonra həmin narkotik vasitəni Biləsuvar rayonu ərazisində 15 min ABŞ dollarına satmaq istəyib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla bağlı respublika Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. İstintaq aparılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi və kollektivi 4 saylı ərazi ekologiya və təbii sərvətlər şöbəsinin rəisi Firdovsi Həsənova oğlu

**QAFARIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri Auditorlar Palatasının İdarə rəisi Səbuhi Gülməmmədova əzizi

**HƏSƏN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 10018
Sifariş 2791